QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 065 (5537) 6 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Azərbaycanın davamlı inkişafı naminə "İlhamla irəli"!




22

**Əli Kərimlini müdafiə edən vətən xaini çıxdı - sensasion məlumatlar**



22

**"ATƏT DTİHB-in müşahidə missiyası seçki təxribatı hazırlayır"**



21

**Eli Naxt: Prezident seçkiləri Azərbaycanın demokratik inkişaf yolunda qazandığı uğurların daha bir göstəricisi olacaq**






# Azərbaycan və Nepal BMT çərçivəsində uğurlu əməkdaşlıq edirlər

*Prezident İlham Əliyev Nepalın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Pradip Kumar Qyavalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, xarici işlər naziri Pradip Kumar Qyavali Nepal Prezidenti xanım Bidhya Devi Bhandarinin və Baş nazir Kxadqa Prasad Şarma Olinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qoşulmama Hərəkatının nazirlər konfransının yüksək səviyyədə təşkili və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Nepalın xarici işlər naziri konfransın açılış mərasimində Prezident İlham Əliyevin nitqinin böyük maraqla qarşılandığını dedi. Əməkdaşlığın genişləndirilməsi üçün imkanların olduğunu vurğulayan Nepalın xarici işlər naziri turizm, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin qurulmasının əhəmiyyətini qeyd etdi.

İkitərəfli əlaqələrin məmnunluq doğurduğunu, iqtisadi, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələrinin qurulması üçün imkanların mövcudluğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz BMT çərçivəsində də uğurlu əməkdaşlıq edirlər. Dövlətimizin başçısı Qoşulmama Hərəkatında həmrəyliyin daha da gücləndirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Nepal Prezidenti və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Nepalın dövlət və hökumət başçılarına çatdırmağı xahiş etdi.



# "Serbiya Azərbaycan üçün dost və tərəfdaş ölkədir"

*Prezident İlham Əliyev Serbiyanın Baş nazirinin birinci müavini və xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Serbiyanın Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçin Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakının əhəmiyyətinə toxundu. İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı vurğuladı ki, Serbiya Azərbaycan üçün dost və tərəfdaş ölkədir. Ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Serbiyanın Baş nazirinin birinci müavini və xarici işlər nazirinin səfərinin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün də yaxşı imkan yaratdığını bildirən Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

Serbiyanın Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanın Serbiya üçün dost ölkə olduğunu qeyd edən İvitsa Daçiç əlaqələrimizin uğurla inkişaf etdiyini dedi. Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.



# Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi dəstək dünyada yüksək qiymətləndirilir

*Prezident İlham Əliyev BMT Baş Assambleyasının 72-ci sessiyasının sədrini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Miroslav Layçakın Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizin Qoşulmama Hərəkatının gənc, lakin, eyni zamanda, çox fəal üzvü olduğunu bildirdi.

BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçak Azərbaycana hər səfərindən sonra ölkəmizdəki böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi. O, Azərbaycana Qoşulmama Hərəkatı təşkilatına sədrliyi dövründə uğurlar arzuladı. Miroslav Layçak ölkəmizin BMT çərçivəsində fəal roluna görə təbriklərini çatdırdı, Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa, həmçinin beynəlxalq terrorizmlə mübarizə sahəsinə verdiyi dəstəyin dünyada yüksək qiymətləndirildiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın mühüm tədbirlər təşkil etdiyini vurğulayaraq ölkəmizin beynəlxalq əməkdaşlıq işinə böyük töhfə verdiyini dedi. "Bakı Prosesi"nə və digər təşəbbüslərə BMT-nin verdiyi dəstəyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı bu yaxınlarda ölkəmizdə mühüm beynəlxalq məsələlərin müzakirə olunduğu Qlobal Bakı Forumunun keçirildiyini və BMT-nin baş katibi Antonio Quterreşin bu tədbirə müraciət ünvanladığını məmnunluqla xatırladı. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin təşkil etdiyi beynəlxalq tədbirlər əməkdaşlığın və sabitliyin möhkəmləndirilməsi işinə yönəlib. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, miqrasiya və iqlim dəyişikliyi problemləri və BMT-nin qarşısında duran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Azərbaycan ilə Venesuela arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

*Prezident İlham Əliyev Venesuelanın xarici işlər üzrə xalq hakimiyyəti nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserratın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Venesuela arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Venesuela Prezidenti Nikolas Maduronun ölkəmizə səfərini və beynəlxalq təşkilatlar çərçivəsində keçirdikləri görüşləri xatırladaraq səmərəli müzakirələrin aparıldığını vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirdi, ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın və Venesuelanın həm BMT-də, həm də Qoşulmama Hərəkatı çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini vurğuladı.

Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserrat Prezident Nikolas Maduronun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Venesuelanın Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlı olduğunu deyərək ölkəsinin Azərbaycanda səfirliyinin açılmasının planlaşdırılmasını bu niyyətin göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Prezident Nikolas Maduronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamını Venesuela dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri Ri Yon-honun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Koreya Xalq Demokratik Respublikasının Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında yüksək səviyyədə təmsil olunmasının önəmini vurğuladı. Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının xarici işlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını qeyd etdi. Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransına böyük əhəmiyyət verdiyini bildirən Prezident İlham Əliyev gələn ildən ölkəmizin bu mühüm quruma sədrlik edəcəyini və təşkilat çərçivəsində həmrəyliyin möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

Koreya Xalq Demokratik Respublikasının nümayəndə heyəti ilə görüşə görə minnətdarlığını ifadə edən xarici işlər naziri Ri Yon-ho Azərbaycanın təşkilatın növbəti sammitinə ev sahibliyi, həmçinin quruma sədrlik edəcəyi münasibətilə təbriklərini çatdırdı. Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri vurğuladı ki, Azərbaycanın təşkilata sədr seçilməsi Qoşulmama Hərəkatı üzvlərinin ölkəmizə olan etimadının və Azərbaycanın beynəlxalq aləmdəki yüksək nüfuzunun göstəricisidir.

# Bakıda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib*

***Aprelin 5-də Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib.***




## Rəsmi xronika

Prezident İlham Əliyev Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şirvan-Salyan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1009-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

Nazirlər konfransında Qoşulmama Hərəkatında iştirak edən, həmçinin Hərəkat yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri olmaqla ümumilikdə 800-dən artıq şəxs iştirak edir. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan Qoşulmama Hərəkatı müasir dünyada öz aktuallığını daha da artırır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rola malikdir. Azərbaycan Respublikası da Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına və 2019-cu ildə Bakıda keçiriləcək Zirvə görüşünə ev sahibliyi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etməklə onun məqsəd və məramlarının təşviq olunmasına, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsinə əsaslı töhfəsini verir.




Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçiriləcək 18-ci Sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Sammitindən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edəcək. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcək. Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olub. Onu da deyək ki, Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat isə Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir.

Konfransdan əvvəl birgə foto çəkdirildi. Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserrat çıxış edib:

"Biz Azərbaycan Respublikasına, Azərbaycan Prezidentinə və Azərbaycan Respublikası hökumətinə Qoşulmama Hərəkatının XVIII nazirlər konfransında yüksək qonaqpərvərliyə görə minnətdarlığımızı ifadə etmək istərdik. Ötən dövrdə əldə olunmuş nailiyyətləri, milli və beynəlxalq vəziyyəti, o cümlədən Qoşulmama Hərəkatının rolunu qiymətləndirmək bu gün bizim üçün vacibdir. Zatialiləri, Prezident Əliyev, nazirlər, nümayəndə heyətlərinin rəhbərləri, bacılar və qardaşlar.

2016-cı ilin sentyabrında keçirilən tarixi Sammitdə Qoşulmama Hərəkatının sədrliyini qəbul edərkən biz birlik və müxtəliflik əsasında üzvlüyü təmin etmək, həmçinin üzv ölkələr arasında həmrəyliyi gücləndirmək, bu mühüm hərəkatın canlandırılması prosesində irəliləyişə nail olmaq üçün üç əsas hədəfi müəyyənləşdirdik. İl yarımdan sonra bu gün biz qarışıqlıq, qeyri-müəyyənlik və başqa ölkələrin suverenliyi üçün problemlər yaratmaq istəyən bəzi ölkələrin yürütdüyü siyasət nəticəsində daha da ciddiləşən bir çox çağırışlarla üzləşirik. Bu, sülh və beynəlxalq həmrəyliyə ziddir. Bəşəriyyət çox dinamik və mürəkkəb vəziyyətlə üz-üzədir. Çünki bəzi ölkələrin yürütdüyü siyasət getdikcə daha da eqoist və qərəzli olur. Halbuki reallıqda kompleks yanaşma olmalı, eyni zamanda, dialoq və həmrəylik ruhu hökm sürməlidir."

Sonra Qoşulmama Hərəkatının Venesuelanın Marqarita şəhərində keçirilən sonuncu Sammitindən ötən müddətdə dünyasını dəyişən prezidentlərin və liderlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində bildirib ki, yarım əsrdən çoxdur ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir:

Ardı Səh. 5



# Bakıda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib*




**Əvvəli Səh. 4**

“Azərbaycan Qoşulmama Hərəkatının nisbətən yeni üzvüdür. Biz bu ailəyə 2011-ci ildə qəbul olunduq, dərhal təşkilatın və onun üzvlərinin dəstəyini hiss etməyə başladıq. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi proseduru zamanı nümayiş olundu. Bu 2011-ci ildə, ölkəmizin təşkilata qəbul olunduğu eyni ildə baş verdi və biz tərəfdaşlarımızın güclü dəstəyini hiss etdik. Bu, o qədər də asan məsələ deyildi, çünki bizim güclü rəqiblərimiz var idi və həmin rəqiblər təşkilatımıza üzv olmayan ölkələr idi. Seçilməyimiz üçün 16 raund tələb olundu və biz 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçildik. Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının dəstəyi bizim ən mötəbər beynəlxalq quruma üzv seçilməyimizdə həlledici rol oynadı.

Bu, bir daha bizim gücümüzü nümayiş etdirir. Onu nümayiş etdirir ki, birlikdə olanda nailiyyətlərimiz çox ola bilər. Bu, üzv dövlətlər arasında həmrəyliyin təzahürüdür. Bu, eyni zamanda, təşkilatımızın imkanlarının göstəricisidir. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş Azərbaycan iki il ərzində orada təşkilatımızın bütün üzvlərini təmsil etdi. Bəyan etdik ki, biz uzun illərdir bir çox hallarda pozulan ədalət və beynəlxalq hüququ müdafiə edəcəyik.

Azərbaycan beynəlxalq hüququn və ədalətin pozulmasının şahidi olub və bunu öz üzərində hiss edib. İyirmi beş ildən artıqdır ki, ölkəmizin ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonumuz erməni işğalı altındadır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən bizim xalqa qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törədib. Həmin soyqırımı dünyanın 10 dövləti tərəfindən tanınıb. Ümidvaram ki, üzv dövlətlər də bu məsələni müzakirə edəcək və insanlığa qarşı olan həmin cinayətlə bağlı mövqelərini bildirəcəklər. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq vəhşicəsinə işgəncəyə məruz qalıb və qətlə yetirilib. Minlərlə insan yaralanıb və ya itkin düşüb. Bu, insanlığa qarşı olan bir cinayətdir.

Təəssüf ki, işğal bu günə qədər davam edir. Fürsətdən istifadə edərək, Qoşulmama Hərəkatının üzv dövlətlərinə, bu ailəyə təşəkkürümü bildirirəm ki, təşkilatımızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edilib. Biz bu dəstəyə görə çox minnətdarıq. Digər təşkilatlar da oxşar qətnamələr qəbul ediblər.

BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməyib, çünki icra mexanizmi mövcud deyil. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT və digər aparıcı təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər, lakin onlar icra olunmayıb. Təəssüflər olsun ki, beynəlxalq hüququn kobud şəkildə pozulması və ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımına baxmayaraq, bu ölkə sanksiyalara məruz qalmayıb. Münaqişənin əvvəlində Ermənistana qarşı sanksiyalar tətbiq edilsə idi, düşünürəm ki, münaqişə çoxdan öz həllini tapmış olardı. Yəni, biz münaqişənin beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipinə əsasən həllinin tərəfdarıyıq.

İşğal olunmuş ərazilər tamamilə viran edilib. ATƏT faktların toplanması məqsədilə oraya iki dəfə araşdırıcı missiya göndərib və onların hesabatlarına əsasən, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız və muzeylərimiz erməni vandalları tərəfindən dağıdılıb. Bu, bizim mədəniyyətimizə qarşı olan cinayətdir. Azərbaycan ərazisinin işğalına son qoyulmalıdır və yalnız ondan sonra regionda sülh bərqərar oluna bilər. Ermənistan ölkədə ksenofobiya bəsləyir, bu, bir monoetnik dövlətdir. Orada heç bir başqa millət yaşamır və Ermənistan əhalisinin 99,9 faizi ermənilərdən ibarətdir. Bu ölkədə yaşayan azərbaycanlılar və digər millətlərin nümayəndələri orada etnik təmizləməyə məruz qalıblar.

Ermənistandan fərqli olaraq, Azərbaycan mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünya səviyyəsində tanınmış mərkəzlərindəndir. Biz multikulturalizm mərkəzlərindən biriyik. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. 2016-cı il ölkəmizdə “Multikulturalizm İli” elan edilib. Biz multikultural dəyərləri, dinlərarası sülh və əməkdaşlığı təbliğ edən çoxsaylı beynəlxalq tədbirlər təşkil etmişik. BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Forumu, Bakıda mütəmadi qaydada təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu və təşkil etdiyimiz digər beynəlxalq tədbirlər multikulturalizmə öz töhfəsini verir. Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlər boyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur. Onun alternativi ayrı-seçkilik, ksenofobiya və islamofobiyadır. Hesab edirəm ki, bu məsələlər müzakirə edilməlidir və Azərbaycan bu dəyərlərin təşviqində öz vacib rolunu oynamaqda davam edəcəkdir.

Azərbaycan Qoşulmama Hərəkatının yeganə üzvüdür ki, “Ekspo 2025”ə öz namizədliyini irəli sürüb. Bu addımın özü göstərir ki, fikrimizcə, biz bu cür mühüm qlobal tədbiri keçirməyə qadirik. Müstəqilliyini cəmi 26 il öncə bərpa etmiş ölkə üçün, hesab edirəm ki, həmin tədbir qazandığımız nailiyyətləri və həqiqi olaraq, müstəqil olduğunuz təqdirdə əldə edilə biləcək nəticələri nümayiş etdirmək fürsəti olardı. Əgər siz heç bir tərəfdən asılı deyilsinizsə, siz bir çox nəticələri əldə edə bilərsiniz. Buna görə mən namizədliyimizə gəldikdə, üzv dövlətlərin dəstəyinə ümid edirəm və bu, həmrəyliyimizin növbəti təzahürü olacaqdır. Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də, müəyyən dərəcədə, oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik.” Nazirlər konfransı işini çıxışlarla davam etdirib.

# "Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub"

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsi*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

-Cənab Prezident, İlham Heydər oğlu, Sizinlə görüşmək imkanına görə çox sağ olun. Biz Sizinlə Azərbaycanda prezident seçkilərinə bir neçə gün qalmış görüşürük. Bu beş ilə yaxın müddət çox tez keçdi. Düşünürəm ki, Sizin üçün bu illər bəlkə də bir an kimi keçdi. Amma hər halda, bu son beş ilin Sizin üçün, ölkəniz üçün nə ilə əlamətdar olduğunu bir neçə kəlmə ilə deyərdiniz, hərçənd, bunu bir neçə kəlmə ilə ifadə etmək yəqin ki, çətindir.

-Mənim fikrimcə, əsas məsələ ondan ibarətdir ki, bu illər ərzində Azərbaycan uğurlu inkişafını davam etdirib. Ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı çoxsaylı proqramlar həyata keçirilib. Nəzərdə tutduqlarımızın hamısı yerinə yetirilib. Bizim nailiyyətlərimiz beynəlxalq strukturlar tərəfindən də qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun son hesablamalarına əsasən, Azərbaycan qlobal rəqabətqabiliyyətliliyinə görə 35-ci yeri tutur. Elə həmin Davos Forumunun inklüziv inkişaf indeksinə görə isə biz inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tuturuq. Bizdən irəlidə yalnız 30 inkişaf etmiş ölkə və iki inkişaf etməkdə olan ölkə var. Yəni, mən düşünürəm ki, Davos Dünya Forumunun verdiyi bu qiymət bizim nəyə nail olduğumuzu hər şeydən yaxşı nümayiş etdirir. Biz iqtisadiyyatın yüksək dərəcədə şaxələndirilməsinə nail olmuşuq, yüz minlərlə yeni iş yeri yaradılıb, Azərbaycanda işsizlik təxminən beş faiz səviyyəsindədir. Yoxsulluğu da xeyli azalda bilmişik. Bu gün yoxsulluq göstəricisi 5,4 faiz həddindədir. Bütün bunlar bizim son illərdə həyata keçirdiyimiz və sanballı səmərə vermiş sosial-iqtisadi siyasətin nəticəsidir.

-Siz iqtisadiyyat barədə danışdınız və bu, çox vacibdir. Amma hər halda tarix baxımından Azərbaycan gənc ölkədir. Əslində, inkişaf etmiş siyasi sistemə malik olan bir dövlət kimi Azərbaycanın hələ 30 yaşı da yoxdur. Siz Azərbaycanda hansı siyasi islahatları uğurlu hesab edirsiniz və siyasi inkişaf üçün, ölkədə siyasi islahatlar üçün daha nə etmək lazımdır?

-Şübhəsiz, bu mövzu daim bizim fəaliyyətimizin gündəliyindədir və mən dəfələrlə açıq bəyan etmişəm ki, siyasi sistemdə islahatlar aparılmadan iqtisadi sahədə davamlı inkişafa nail olmaq mümkün deyil. Son dövrdə bu istiqamətdə çox iş görülüb. Azərbaycan dünya üçün açıq ölkədir. Ölkəmizdə bütün demokratik təsisatlar mövcuddur, mətbuat azadlığı tam təmin edilir. Azərbaycan internetin azad olduğu ölkədir. İnternet istifadəçilərinin sayı artır və əhalinin təxminən 80 faizinə yaxınlaşır. Toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı da tam təmin edilir. Biz Avropa Şurasının artıq təcrübəli üzvü kimi cəmiyyətimizin daha da demokratikləşməsinə dair öz üzərimizə öhdəliklər götürmüşük və zənnimcə, bunun öhdəsindən inamla və uğurla gəlirik. Hərçənd, əlbəttə ki, əlavə səylər tələb edən məsələlər də var və biz bu istiqamətdə işləyirik. Biz siyasi islahatların və nailiyyətlərin səviyyəsini çox sağlam düşüncə ilə qiymətləndiririk. Hesab edirik ki, müstəqilliyin iyirmi altı ili ərzində bizim tariximiz, Azərbaycanın gənc müstəqil dövlət kimi təşəkkülü, ölkəmizin coğrafi yerləşməsi və bizim regionda mövcud olan və yarana biləcək risklər nəzərə alınmaqla mümkün olan maksimum işlər görülüb.



Bizim hələ inkişaf etdirməli olduğumuz istiqamətlər arasında ictimai nəzarətin gücləndirilməsini qeyd etmək istərdim. Mən bu barədə dəfələrlə fikrimi söyləmişəm və vətəndaşları dəyişikliklərin həyata keçirilməsinə nəzarət məsələsində daha fəal olmağa çağırmışam. Ona görə ki, Azərbaycanda sosial-iqtisadi inkişaf, infrastrukturun inkişafı baxımından çox iş görülür və bəzən ictimai nəzarətin yetərincə olmaması pozuntulara və nəzərdə tutulan planların ləngiməsinə gətirib çıxarır. Bundan əlavə, əlbəttə, biz Azərbaycanın demokratikləşməsi istiqamətində fəaliyyətimizi də davam etdirəcəyik. Biz açıq ölkəyik. Biz bu yolu şüurlu şəkildə seçmişik və həm siyasi, həm də iqtisadi islahatların inkişafını davam etdirəcəyik.

-İlham Heydər oğlu, Siz Azərbaycanın iqtisadiyyatda qazandığı uğurların ekspertlər tərəfindən yüksək qiymətləndirilməsindən danışanda, əlbəttə, bu, ilk növbədə, Azərbaycanın iqtisadi müstəqilliyinin nəticəsidir. Bu iqtisadi müstəqilliyin təməli Azərbaycan Prezidenti, ümummilli lider Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulub. Lakin belə demək ədalətli olardı ki, tam iqtisadi müstəqillik, sözün həqiqi mənasında, son beş ildən bir qədər artıq müddətdə qazanılıb. Bununla əlaqədar Siz sosial-iqtisadi inkişafın hansı istiqamətlərini daha prioritet hesab edirsiniz? Sizin fikrinizcə, Azərbaycan hansı sahələrdə daha böyük uğurlar qazanıb, hansı istiqamətləri isə hələ inkişaf etdirmək lazımdır?

-Bəli, siz tamamilə haqlısınız. Bizim fəaliyyətimizin başlıca istiqamətlərindən biri iqtisadi müstəqilliyin tam təmin edilməsi olub, bu, siyasi müstəqilliyin əsasıdır. Ona görə ki, əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, onda müstəqil siyasət həyata keçirməkdə böyük çətinliklərlə üzləşə bilər və çox vaxt üzləşir. Buna görə də bu, bizim fəaliyyətimizin başlıca istiqaməti olub və bu gün Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və heç bir iqtisadi çətinliyi olmayan ölkədir. Bir neçə rəqəm göstərə bilərəm: son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb, zənnimcə, bu, dünya rekordudur. Çox böyük investisiya layihələrinə baxmayaraq, bizdə xarici borcun sabitləşdirilməsi üzrə də iş aparılıb. Bu gün xarici borc ümumi daxili məhsulun təxminən 20 faizinə bərabərdir. Mən qarşıdakı illərdə bu borcun xeyli azaldılması barədə göstərişlər vermişəm. Azərbaycanın valyuta ehtiyatlarının həcmi ümumi daxili məhsulun həcminə bərabərdir. Başqa sözlə desək, biz istəsək bir neçə gün və ya bir neçə ay ərzində bütün borcları ödəyə bilərik. Azərbaycanın maliyyə vəziyyəti kifayət qədər sabitdir və bizim həyata keçirdiyimiz investisiya layihələri, əlbəttə ki, əlavə mənfəət gətirəcək. Onu da qeyd etməliyəm ki, son 15 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollardan artıq sərmayə qoyulub.

- Bunlar xarici sərmayələrdir?

-Bunun yarısı xarici, yarısı daxili sərmayələrdir. Bu da həm Azərbaycan dövlətinin, həm də Azərbaycanın özəl sektorunun fəal investisiya siyasətinə dəlalət edir. Buna görə də bütün bunlar bu gün tamamilə təmin olunmuş iqtisadi müstəqilliyin əsasını təşkil edir.

Son illərin sanballı uğurları arasında bizim enerji sektorunda nailiyyətlərimizi də qeyd etmək istərdim. Biz elektrik enerjisini idxal edən ölkədən onu ixrac edən ölkəyə çevrilmişik. Yaxın keçmişdə qazı da idxal edirdik, indi qazın ixracatçısına çevrilmişik. Bizim həyata keçirdiyimiz iri neft-qaz layihələri böyük maliyyə resurslarını akkumulyasiya etməyə imkan verir. Biz həm ölkə daxilində, həm də regional miqyasda nəqliyyat infrastrukturuna çox fəal şəkildə sərmayə qoymuşuq, bununla da gələcəkdə davamlı inkişaf üçün təməl yaratmışıq.

Hələ görülməli işlərə gəldikdə isə, əlbəttə ki, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin davam etdirilməsini, neft-qaz amilindən müəyyən dərəcədə asılılığın azaldılmasını və qeyri-neft sektorunda ixracın artırılmasını qeyd etmək istərdim. Məhz bu istiqamətlərdə fəal iş aparırıq. Son 2-3 ilin nəticələri çox sanballıdır. Biz qeyri-neft sektorunda ixracı 20-30 faiz artırmışıq və gələcəkdə əlbəttə ki, bu məsələ ən prioritet mövzulardan biri olacaq. Qeyd etməliyəm ki, bəzi ölkələrdən fərqli olaraq biz daim yeni iş yerləri yaradılması üzərində çalışırıq. Son 15 ildə 1 milyon 400 min iş yeri yaradılıb. Lakin bu illər ərzində Azərbaycan əhalisinin sayı 1 milyon 500 min nəfər artıb. Zənnimcə, bu da iqtisadi artımın indikatorudur. Buna görə iqtisadiyyatımız bizim demoqrafiyanı daim qabaqlamalıdır. Mən hökumətin qarşısında bu vəzifəni qoymuşam və biz bu istiqamətdə işləyirik.

Buna görə yeni istehsalatların, əhalinin daha artıq sayı üçün nəzərdə tutulan sosial infrastrukturun yaradılması qarşıdakı illərdə əsas prioritet olacaq.

-Xəritəyə baxanda görünür ki, Azərbaycan, belə deyək, dünyanın heç də ən sakit regionunda yerləşmir, onun yaxınlığında və ya ondan azacıq uzaqda müxtəlif münaqişələr baş verir və düşünürəm ki, bu, müəyyən qədər narahatlıq doğurur, eyni zamanda, ölkənin müdafiə qabiliyyətini möhkəmlətməyi zəruri edir. Bilirəm ki, ordunun möhkəmləndirilməsi üçün çox iş görülməsi barədə Siz özünüz də dəfələrlə danışmısınız. Bu gün Azərbaycanın müasir silahlarla təchiz olunmuş müasir ordusu var. Ölkənin həqiqətən, Siz demişkən, etibarlı şəkildə müdafiə olunması, bu istiqamətdə möhkəmlənmək üçün daha hansı işlərin görülməsini vacib hesab edirsiniz?

-Bəli, siz haqlısınız. Biz bu məsələni daim diqqət mərkəzində saxlayırıq və ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi əsas prioritetlərdən biridir. Bu istiqamətdə çox iş görülüb. Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Biz silahların yenilənməsi prosesini praktiki olaraq başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə əlbəttə, ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Əlbəttə ki, çoxsaylı təlimlər və treninqlər bizdə hələlik mövcud olan çatışmazlıqları göstərir. Biz Silahlı Qüvvələrin maddi-texniki bazasını xeyli möhkəmlətmişik. Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu əslində yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq. Silahların alınması məsələsinə gəldikdə, bu iş daha böyük seçim əsasında, daha konkret aparılacaq, müvafiq məsələlərin həlli üçün həyata keçiriləcək. Bununla paralel olaraq, təqribən 10 il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Ona görə ki, o vaxta qədər biz hərbi məhsullar istehsal etmirdik. Bu gün isə belə məhsulları nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir.

-Bəzi qonşularınızdan fərqli olaraq Azərbaycan tarixən multimilli ölkə olub və bu gün də belədir. Azərbaycanda təkcə iri milli diasporların sayı 10-dan çoxdur, azsaylı xalqları da nəzərə alsaq belə diasporlar onlarcadır. Sizin fikrinizcə, bu millətlərarası həmrəyliyi, sülhü dəstəkləmək, bu diasporların bir-biri ilə xoş qarşılıqlı münasibətlərdə yaşamaları üçün nə iş görülür və Siz bu fəaliyyəti nə dərəcədə gərəkli hesab edirsiniz?

-Bilirsinizmi, tarixən iş elə gətirib ki, Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub. Məsələn, əvvəllər multikulturalizm kimi terminlər yox idi, lakin bu, həmişə bizim həyat normamız olub. Müstəqillik illərində biz bu müsbət meyilləri nəinki qoruyub saxlamağa, həm də onları möhkəmlətməyə nail olmuşuq.

**Ardı Səh. 7**

# "Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub"

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsi*

Əvvəli Səh. 6

Bu gün ölkəmizdə yaşayan bütün xalqlar, bütün konfessiyaların nümayəndələri özlərini rahat, ölkəmizin layiqli vətəndaşları kimi hiss edir və həqiqətən belədir. Mən dəfələrlə demişəm, bizim müxtəlifliyimiz bizim sərvətimizdir. Azərbaycanın etnik və dini müxtəlifliyi bizim böyük sərvətimizdir, biz onu çox yüksək qiymətləndiririk və bu müsbət meyillərin möhkəmlənməsi üçün nə lazımdırsa edirik.

Azərbaycanın daxilində millətlərarası, konfessiyalararası münasibətlər sahəsində heç bir potensial problem yoxdur. Biz bu istiqamətdə dövlət siyasətini həyata keçiririk. Bu da çox vacibdir ki, cəmiyyət bu siyasəti tamamilə dəstəkləyir. Biz bu müsbət meyillərin regionda da, dünyada da yayılması üçün fəal iş aparırıq. Ona görə ki, biz vakuumda yaşamırıq. Təbii ki, dünyanın istənilən nöqtəsində baş verən, millətlərarası münasibətlərdə gərginliklərlə, mürəkkəbliklərlə bağlı olan proseslər potensial təhlükə mənbəyidir. Buna görə bizim təşəbbüsümüzlə çoxsaylı beynəlxalq tədbirlər keçirilib - Bakı Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu. Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. Azərbaycanın təşəbbüsü ilə başlanmış bu prosesin mahiyyəti, qısaca desək, İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan ölkələrlə Avropa Şurasının üzvləri olan ölkələr arasında məhz mədəniyyətlərarası, dinlərarası, sivilizasiyalararası dialoq səylərini əlaqələndirməkdən ibarətdir. Biz bunu bu istiqamətdə uğurlarımızı nümayiş etdirmək üçün deyil, bu müsbət meyillərin möhkəmlənməsi üçün edirik. Zənnimcə, qısa şəkildə şərh etsək, millətlərarası, dinlərarası həmrəyliyin bu cür yüksək səviyyəsinə necə nail olmağımız onunla bağlıdır ki, biz bu barədə yalnız danışmırıq, həm də bu istiqamətdə düşünürük və fəaliyyət göstəririk. Əgər dünyada bu cür yanaşma üstünlük təşkil etsə, bu zəmində problem olmayacaq.

-Siz konfessiyalararası sülh barədə danışdınız. Bu, doğrudan da belədir. Mən canlı şahid olmuşam ki, Novruz bayramı günlərində məscidlər dolu olur, pravoslavların Pasxa bayramında pravoslavlar rus kilsəsinə gəlir, sinaqoqda həmişə yəhudi dininə etiqad edən insanlar olur. Azərbaycan dünyəvi dövlətdir, lakin, eyni zamanda, müsəlman ölkəsidir. Sizin üçün sirr deyil ki, bəzi radikal islamçı qruplaşmaların inkişaf etməsi qorxusu var. Azərbaycan üçün bu təhlükə, radikal qruplaşmaların buraya soxulması təhlükəsi nə dərəcədə ciddidir? Siz buna qarşı mübarizə aparmağı nə dərəcədə zəruri hesab edirsiniz və bunu necə etmək olar?

-Bilirsinizmi, potensial baxımdan bütün müsəlman ölkələrində bu cür təhlükə var. Əsas məsələ hökumətin, cəmiyyətin buna necə münasibət bəsləməsi, cəmiyyətin vəziyyəti, onun bu ideyanı qəbul edib-etməməsidir. Buna görə biz çoxdan başa düşmüşük ki, radikalizmin ixracına qarşı təkcə inzibati və ya hər hansı başqa tədbirlər vasitəsilə mübarizə aparmaq kifayət deyil. Biz bu cür təhlükəli ideyaların, necə deyərlər, həyat məkanını məhdudlaşdırmalı idik və buna nail olduq. Biz bu məkanı özümüzün fəal hərəkətlərimizlə məhdudlaşdırmalıyıq. Azərbaycanın dünyəvi dövlət kimi fasiləsiz uğurlu inkişafının başlıca qarantı, ilk növbədə, təhsildir. Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Təhsil məsələlərinə çox böyük diqqət yetirilir. Bunu demək kifayətdir ki, bizim büdcəmizdə iki əsas xərc maddəsi var - müdafiə və təhsil. Müdafiənin səbəbləri aydındır. Təhsil isə məhz onun üçündür ki, Azərbaycan vətəndaşlarının gələcək nəsilləri savadlı olsun və radikalizmdən qoruna bilsinlər. İkinci mühüm amil sosial-iqtisadi inkişaf məsələsidir. Biz görürük ki, çoxsaylı sosial-iqtisadi problemlər - yoxsulluq, işsizlik, ümidsizlik olan yerdə radikalizm və ekstremizm ideyaları özünə dəstək tapır, savadsız adamlar düşünürlər ki, xilas yolu elə bundan ibarətdir. Buna görə bu cür təbliğata qarşı mübarizənin mühüm amilləri, zənnimcə, təhsil üstəgəl iqtisadi və sosial inkişafdır. Dediyim kimi, Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir. Əlbəttə, fəal dövlət siyasəti və milli mənlik şüuru ideyalarının, bizim keçmişimizlə bağlı ideyaların, gələcək planlarımızın təbliği - bütün bunlar potensial təhlükələrə qarşı fəal mübarizə aparmağımıza kömək edir. Deməliyəm ki, ölkəmizin daxilində cəmiyyətin radikallaşması ilə bağlı potensial risklər yoxdur. Biz, sadəcə, özümüzü kənardan mənfi və təhlükəli təsirlərdən həm inzibati, həm də sosial-iqtisadi və ideoloji xarakterli tədbirlərlə qorumalıyıq.

-Azərbaycan çoxvektorlu xarici siyasət yürüdür. Hamı görür ki, Azərbaycanın xarici siyasi mövqeləri ilbəil möhkəmlənir. Bir neçə il bundan əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi buna sübutdur. Siz necə hesab edirsiniz, xarici siyasətin bu istiqamətlərini nə dərəcədə inkişaf etdirmək lazımdır? Sizin fikrinizcə hansı sahələrdə bəzi ləngimələr, çatışmazlıqlar var və bu gün xalqların siyasi ailəsində Azərbaycan özünü necə hiss edir?

-Çox rahat və inamlı hiss edir. Düşünürəm ki, xarici siyasət sahəsində biz mümkün olan maksimuma çatmışıq. Sizin qeyd etdiyiniz kimi, bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvlərinin mütləq əksəriyyəti deməkdir. Bu onu göstərir ki, biz qısa müstəqillik dövründə dünyaya özümüzü böyük hörmət sahibi olan etibarlı ölkə kimi göstərə bilmişik. Biz xarici siyasətdə həmişə öz milli maraqlarımızı əsas götürmüşük və bu gün də belədir. Xarici siyasət daxili siyasətin davamıdır. O, daxili problemlərin həllinə kömək edir. Əlbəttə, mövqeyimiz həmişə belə olub ki, biz tərəfdaşlarımızla əlaqələrimizi qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə möhkəmlətməliyik və əməkdaşlıq yolu ilə daha sıx ünsiyyətə və qarşılıqlı anlaşmaya nail olmalıyıq. Düşünürəm ki, biz bunu edə bilmişik. Biz öz xarici siyasətimizi lap əvvəldən elə planlaşdırmamışıq ki, o, çoxvektorlu və ya hamı üçün məqbul olsun. Bizim ənənəvi tərəfdaşlarımızla prinsipial xarakterli bir sıra məsələlər barəsində fikir ayrılıqları az deyil. Lakin bu, münasibətlərin başlıca, strateji xarakterini, bu münasibətlərin həm bizim üçün, həm də tərəfdaşlarımız üçün əhəmiyyətini görməyə və nəticəyə yönəlməyə mane olmur.

Deməliyəm ki, biz beynəlxalq arenada böyük etimad qazanmışıq və bizimlə razılaşmaya bilərlər. Lakin düşünürəm ki, bizə hörmət edir və etimad bəsləyirlər. Bir daha deyirəm, bizim milli maraqlarımız ondan ibarətdir ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun, lakin bu, hansısa birtərəfli güzəştlər hesabına deyil, məhz konkret nəticələrə yönəlmiş səmərəli əməkdaşlıq siyasəti nəticəsində əldə edilməlidir. Məncə bunun nəticəsi ondan ibarətdir ki, Azərbaycan həm müsəlman dünyasında çox güclü mövqeyə malikdir, həm də Avropa strukturlarında fəal iştirak edir və öz mənafelərini qoruyur. Bizim qonşularla çox yaxşı və sıx, mehriban münasibətlərimiz var, onlar da bizə yaxşı münasibət bəsləyirlər. Buna görə də bizim xarici siyasətimizdə hələ yaxşılaşdırılmalı və ya düzəliş edilməli olan istiqamətlər qalmayıb. Məncə, əsas vəzifə bu müsbət inkişaf vektorunu qoruyub saxlamaqdır. Bu, regional sabitliyin möhkəmləndirilməsinə şərait yaradacaq.

-Siz Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə münasibətlərinin strateji xarakter daşıması barədə dəfələrlə danışmısınız. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin də bu barədə danışıb, özü də dəfələrlə. Rusiyada seçkilər keçirildi. Bu vəzifəyə seçilməsi münasibətilə Rusiya Prezidentini ilk təbrik edənlərdən biri Siz oldunuz. Ekspertlərin çoxu Rusiya Prezidenti ilə Sizin münasibətlərinizin xüsusi etimada əsaslandığını deyirlər. Siz dəfələrlə görüşmüsünüz. Bununla əlaqədar, Siz Rusiya-Azərbaycan, Azərbaycan-Rusiya münasibətlərinin bugünkü vəziyyətini necə qiymətləndirirsiniz? Daha nə etmək lazımdır, bu sahədə nə kimi çətinliklər var? Digər tərəfdən, bu münasibətlərin inkişafı üçün iki liderin bu cür şəxsi əlaqələrini Siz nə dərəcədə vacib hesab edirsiniz?

-Şübhəsiz, hər hansı dövlətlərarası münasibətlərdə, xüsusən qonşu ölkələr, çoxillik tarixi əlaqələri olan ölkələr arasında münasibətlərdə liderlərin şəxsi əlaqəsi həmişə mühüm rol oynayır. Əlbəttə, Prezident Vladimir Vladimiroviç Putin ilə bizim şəxsi münasibətlərimiz ölkələrimizin ikitərəfli münasibətlərinin uğurlu inkişafı üçün mühüm amillərdən biridir. Bizim tez-tez baş tutan görüşlərimiz, ikitərəfli və çoxtərəfli formatda əlaqələrimiz ikitərəfli münasibətlərin, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə şərait yaradır. Sizin qeyd etdiyiniz kimi, bizim aramızda çox etimadlı münasibətlər var, bizdə qapalı mövzular yoxdur və bizim müdaxiləmizi tələb edən hər hansı məsələlər yarandıqda hökmən zəngləşirik və ya görüşürük və tabeliyimizdə olanlardan kiminsə yol verdiyi qüsurları tənzimləyirik. Bizim ikitərəfli münasibətlərin bu çox vacib amili dövlətlərarası əməkdaşlıqda mühüm rol oynayıb və yenə oynayır. Düşünürəm ki, çox cəhətdən bizim etimada əsaslanan şəxsi münasibətlərimiz və ölkələrimizin bir-biri üçün vacib olmasını anlamağımız sayəsində biz əməkdaşlığımızı strateji tərəfdaşlıq səviyyəsinə çatdırmağa nail olmuşuq. Bunu Rusiya da bəyan edir, Azərbaycan da.

Biz bir sıra məsələlər üzrə çox sıx qarşılıqlı əlaqə saxlayırıq. İqtisadi sahədə əmtəə dövriyyəsi artır, nəqliyyat, energetika sahələrində birgə layihələr həyata keçirilir. Humanitar əməkdaşlıq çox geniş sahədir. Azərbaycanda təhsilin rus dilində olduğu 300-dən çox məktəb var. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində fakültə var. Nisbətən yaxın vaxtlarda Bakıda Rusiyanın iki aparıcı ali məktəbinin - Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları açılıb. Bu da bizim humanitar əməkdaşlığımızın mühüm amilidir. Demək istəyirəm ki, münasibətlərimiz tamdəyərlidir və düşünürəm ki, qonşular və dostlar arasında münasibətlər belə olmalıdır.

-Bizdə beynəlxalq gündəliyə aid daha bir məsələ var. Bu, Xəzər məsələsidir. Azərbaycan Xəzəryanı ölkədir. Burada digər Xəzəryanı ölkələrin - Rusiya, Türkmənistan, Qazaxıstan və İranın da maraqları var. Bilirəm ki, Xəzərin statusu, Xəzərin təkindən istifadə edilməsinin bəzi şərtləri barədə danışıqlar aparılır. Bu danışıqlar hansı mərhələdədir və Siz bu inkişafın perspektivini necə təsəvvür edirsiniz?

-Məncə, Xəzər dənizinin hüquqi statusunun qəti müəyyən edilməsi məsələsində əhəmiyyətli fakt odur ki, biz düzgün istiqamətdə irəliləyirik. Qiymətləndirmə və təhlil tələb edilən bütün məsələlərdə meyilləri nəzərə almaq lazımdır. Yəni, bu məsələyə dair qarşılıqlı anlaşmaya nail olmaq meyli hiss olunur və deməliyəm ki, görülməli olan işlərin çox hissəsi artıq yerinə yetirilib. Düşünürəm ki, bütün Xəzəryanı dövlətlər tərəfindən bundan sonra da nümayiş etdiriləcək xeyirxah iradə bu məsələni tənzimləməyə və Xəzər dənizinin statusu məsələsinə bir növ nöqtə qoymağa imkan verəcək. Bununla bərabər, qeyd etməliyəm ki, Xəzər dənizinin statusunun tənzimlənməmiş qalması məsələsi Xəzəryanı dövlətlərin əməkdaşlığının istər çoxtərəfli, istərsə də ikitərəfli formatına əsla təsir göstərmir. Hər halda, Azərbaycana aid problem yoxdur.

Bizim bütün Xəzəryanı ölkələrlə çox sıx, səmimi, real məzmunlu və çox yüksək etimad səviyyəsinə əsaslanan münasibətlərimiz var. Ona görə düşünürəm ki, bütün Xəzəryanı ölkələrin şərik çıxdığı bu yanaşma - Xəzərin statusu məsələsini qonşularla münasibətlərin gündəliyində bir nömrəli məsələ hesab etmək əvəzinə, qüvvələrimizi bu gün həll edilməsi mümkün və lazım olan məsələlər üzərində cəmləşdirməliyik. Bununla da biz həmin məsələnin tənzimlənməsi üçün zəmin yaratmış olarıq. Hesab edirəm ki, beynəlxalq problemlərlə bağlı bütün başqa məsələlərdə olduğu kimi, burada da beynəlxalq hüququn, bu tipli məsələlərin tənzimlənməsində mövcud beynəlxalq praktikanın prinsipləri və tərəflərin xeyirxah iradəsi ilə bağlı məsələlər əsas götürülməlidir. Ona görə də hesab edirəm ki, bu istiqamətdə görülmüş işlər təqdirəlayiqdir. Bu məsələnin bəzi istiqamətləri üzrə irəliləmək üçün planlarımız var. Düşünürəm ki, lap yaxın vaxtlarda biz yaxşı nəticələr görəcəyik.

-İlham Heydər oğlu, əlbəttə, Sizdən soruşmaya bilmərəm ki, Dağlıq Qarabağ ətrafında vəziyyət necə inkişaf edir. Mən başa düşürəm, bu məsələ yəqin ki, daim Sizin diqqətinizdədir, Prezident kimi peşəkar fəaliyyətinizdə bu sual var. Minsk qrupu işləyir, nazirlər görüşür, hərdən bir müxtəlif formatlı ali səviyyəli görüşlər baş verir. Amma hər halda məndə belə təsəvvür yaranıb və əslində güman edirəm, bütövlükdə ekspert cəmiyyəti də bu fikirdədir ki, vəziyyət dairə boyunca hərəkət edir. Vəziyyət sanki donma mərhələsindədir. Bu vəziyyət Azərbaycan üçün nə dərəcədə məqbuldur? Bununla əlaqədar hər hansı irəliləyiş gözləmək olarmı və bu ağrılı vəziyyətin nəhayət sona çatması üçün hansı addımlar atılmalıdır?

-Şübhəsiz, indiki vəziyyət istər Azərbaycan, istərsə də dünya birliyi üçün məqbul deyil. Xüsusən ona görə ki, vasitəçilik missiyası mandatına malik olan, Minsk qrupunun həmsədrləri olan ölkələr - Rusiya, Fransa və ABŞ dövlət başçıları səviyyəsində birgə bəyanatlarında dəfələrlə bildiriblər ki, status-kvo qəbuledilməzdir və o, dəyişməlidir. Biz bu mövqeyə tamamilə şərikik və bu cür bəyanatları çox düzgün hesab edirik. Lakin biz konkret fəaliyyət gözləyirik. Bəyanatlar, əlbəttə, vacibdir, lakin bizə bu məsələnin tənzimlənməsi lazımdır. Məsələnin tənzimlənməsi üçün bütün hüquqi mexanizmlər mövcuddur.

Ardı Səh. 8

# "Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub"

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsi*

Əvvəli Səh. 7

BMT Təhlükəsizlik Şurası 20 ildən çox bundan əvvəl erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr öz qüvvəsini saxlayır və onlar yerinə yetirilməlidir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. Təəssüf ki, bu imtinaya görə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməyib.

Digər beynəlxalq təşkilatlar da buna oxşar qərarlar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı və digər təşkilatlar oxşar qətnamələr qəbul ediblər. Ermənistan həmin qətnamələri yerinə yetirmir. Azərbaycan torpaqlarının işğalı davam edir. İşğal nəticəsində bir milyondan çox azərbaycanlı öz torpağında məcburi köçkün, qaçqın vəziyyətinə düşüb. Bizim şəhərlərimiz dağıdılıb, insanlarımız öz yurdlarından qovulub. Bizə qarşı etnik təmizləmə həyata keçirilib. Bütün bunlar faktlar və materiallarla sübut edilib. Bu cür materiallar kifayət qədərdir. Lakin məsələnin tənzimlənməməsinin başlıca səbəbi ondan ibarətdir ki, Ermənistan status-kvonu dəyişmək istəmir. Ermənilər sözdə danışıqlar aparmaq arzusunu bildirir, əslində isə danışıqları imitasiya etməklə məşğul olur və əllərindən gələni edirlər ki, siz deməmişkən, hər şey dairə boyunca təkrarlansın və bu prosesin sonu olmasın. Bu isə istər bizim üçün, istərsə də dünya birliyi üçün qəbuledilməzdir. Buna görə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən tezliklə yerinə yetirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə tezliklə başlanması, - axı, təkcə Dağlıq Qarabağ deyil, həm də Azərbaycan SSRİ-nin Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyəti olmayan və olmamış 7 Azərbaycan rayonu da işğal altındadır, - münaqişənin mərhələli tənzimlənməsində birinci addım olmalıdır və münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında həll edilməlidir.

-Siz Azərbaycanın beynəlxalq fəaliyyəti, onun beynəlxalq fəallığı, Azərbaycanın iri forumlar, tədbirlər keçirilən məkana çevrilməsi barədə danışdınız. Belə hallarda Azərbaycan bu tədbirlərin təşəbbüsçüsü kimi çıxış edib, iştirakçıları dəvət edib. Yəni, beynəlxalq təşkilatlar, beynəlxalq təsisatlar öz görüşləri üçün Azərbaycanı özləri seçirlər, belə nümunələr çoxdur. Məsələn, hazırda Rusiya-Amerika münasibətlərində hamı fikir verib ki, Rusiyanın və Birləşmiş Ştatların Baş Qərargah rəisləri - ABŞ Birləşmiş Qərargahlarının rəisi general Danford və Rusiya Baş Qərargahının rəisi, ordu generalı Gerasimov iki dəfə Bakıda görüşüblər. Bu, Sizin razılığınızla onların seçimi idi. Mənə belə gəlir ki, bu da Azərbaycanın dünya arenasında nüfuzunun möhkəmlənməsinin çox mühüm göstəricisidir. Sizin fikrinizcə, Azərbaycanın, onun paytaxtı Bakının bundan sonra da ən aktual problemlər üzrə çoxtərəfli və ya ikitərəfli görüşlər üçün bir məkan olması nə dərəcədə vacibdir?

-Bəli, siz haqlısınız, Azərbaycan həm regional, həm də qlobal əməkdaşlıq məkanına çevrilir. Biz də Rusiya və ABŞ ordularının baş qərargah rəislərinin görüşlərinin keçirilməsi məkanı kimi Bakının seçilməsi təklifini bizə hörmət və etimad əlaməti kimi qiymətləndirdik. Biz bunu həm də Azərbaycanın düzgün qurulmuş xarici siyasətinin daha bir elementi kimi qiymətləndiririk. Azərbaycan dünya birliyi tərəfindən çox etibarlı tərəfdaş, dost ölkə kimi qəbul edilir. Ölkəmiz beynəlxalq, regional və qlobal əməkdaşlığı təkcə bəyan etmir, həm də bu işdə konkret mühüm addımlar atır. Biz artıq çoxlu sayda iri beynəlxalq tədbirlər, beynəlxalq forumlar, idman tədbirləri - birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları təşkil edən ölkəyik. Bu Oyunlar arasında cəmi iki il vaxt keçib. Bu da bizim imkanlarımızı, habelə dünyanın bizə münasibətini nümayiş etdirir. Ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası 100-dən çox ölkəni birləşdirir. Bu, dünya birliyinin yarıdan çoxu deməkdir. Bunlar əslində dünyanın aparıcı ölkələridir. Əlbəttə, düşünürəm ki, biz buna öz əməyimizlə, öz siyasətimizlə və onun sayəsində nail olmuşuq ki, Bakı dünya xəritəsində çox məşhur şəhərə çevrilib.

Onu da deməliyəm ki, son vaxtlar bizə çoxlu turistlər gəlir. Son üç ildə turizm çox inkişaf edib. Bütün bunlar bizim həyata keçirdiyimiz fəaliyyətin nəticəsidir. Azərbaycan sabit ölkədir, Azərbaycan xalqı öz qonaqpərvərliyi ilə məşhurdur, ölkəmizdə işləmək, istirahət etmək üçün hər cür şərait yaradılıb. Düşünürəm ki, əlbəttə, gələcəkdə bu cür tədbirlər daha çox olacaq. Biz öz tərəfimizdən həmişə çalışırıq ki, sıx əməkdaşlıq etdiyimiz ölkələrin öz arasında da yaxşı işgüzar münasibətlər olsun. Biz bu regionda yaşayırıq. Bu regionda baş verən bütün hadisələr istər-istəməz bizə müəyyən dərəcədə təsir edir. Buna görə də biz çalışmalıyıq ki, özümüz üçün riskləri beynəlxalq əməkdaşlıq vasitəsilə minimuma endirək. Əgər biz dünyanın aparıcı ölkələri arasında gərginliyin azaldılması işinə hər hansı kiçik töhfə verə biliriksə, əlbəttə, gələcəkdə də bunu edəcəyik.

-İlham Heydər oğlu, bilirsinizmi, Azərbaycanı sevən insanlar, onun uğurlarını izləyənlər Azərbaycanın sosial-iqtisadi sahədə, siyasi inkişafda qazandığı nailiyyətlərə görə sevinməyə bilməzlər. İndi, seçkilər ərəfəsində Siz ötən beşilliyə nəzər salaraq deyə bilərdinizmi ki, bu illər ərzində ən çətin iş nə olub? Elə hallar olubmu ki, gecələr yuxunuz ərşə çəkilib, Sizə elə gəlib ki, nə isə alınmır və daha nə etmək lazımdır? Axı, hər halda seçkilər ərəfəsində Siz bundan sonrası barədə də düşünürsünüz?!

-Səmimi deyim ki, yuxusuz gecələr tələb edəcək dərəcədə narahatlıq doğuran bir məsələni xatırlamaqda çətinlik çəkirəm. Bilirsinizmi, elə ciddi çətinlikləri yada sala bilmirəm. Əlbəttə, işdə elə məqamlar olur ki, müəyyən məyusluq keçirirsən, çünki təlimatlar və tapşırıqlar lazımınca yerinə yetirilmir. Lakin bütövlükdə bu illər ərzində bizim bütün işlərimiz plan üzrə gedib. Ona görə mən lap əvvəldən bunu əsas götürmüşəm ki, dövlətin davamlı inkişafı yalnız atılmalı addımların ardıcıllığı, onların prioritetləri düzgün planlaşdırılmış olduqda mümkündür və onlar nəticəyə yönəldilməlidir. Biz həmişə populizmdən, populist ritorikadan uzaq olmuşuq. Bəzən hətta çalışmışıq ki, özümüzü o qədər də nümayiş etdirmədən, sadəcə, ölkənin uğurla inkişaf etməsi üçün lazım olan işi görək. Bir daha deməliyəm ki, bizim daxili inkişafla bağlı məsələlər sarıdan heç bir çətinliyimiz olmayıb və düşünürəm ki, olmayacaq. Vaxtaşırı olaraq yalnız narahatlıq doğuran məsələlər regional vəziyyətlə bağlı olub: regionda vəziyyətin kəskinləşməsi bizim vətəndaşlara, ölkəmizə necə mənfi təsir göstərə bilər və bizim vətəndaşları və ölkəni risk təhlükəsindən qorumaq üçün nə etmək lazımdır. Zənnimcə, hər hansı çətinliklər barədə danışmalı olsaq, bu nümunəni göstərə bilərdim, o da yalnız o mənada ki, bu amillər bizdən asılı deyil. Bizim qərarlarımızdan və hərəkətlərimizdən asılı məsələlərlə əlaqədar heç bir çətin məqam yadıma gəlmir. Bir daha deməliyəm ki, hər işimiz plan üzrə gedib və yolun əvvəlində verdiyimiz bütün vədlər artıqlaması ilə yerinə yetirilib.

-Onda, icazənizlə, bu sualı dəqiqləşdirim. Elə həftə olmur ki, Siz respublikanın rayonlarına, müxtəlif regionlara səfər etməyəsiniz. Siz insanlarla fəal görüşlər keçirirsiniz. Özünüzün haqlı olaraq dediyiniz kimi, populizm Sizə xas olan cəhət deyil. Lakin, eyni zamanda, insanlar Sizə müəyyən xahişlərlə, müəyyən suallarla müraciət edirlər. Müxtəlif regionlar üzrə ümumiləşdirmə aparsaq, insanları ən çox narahat edən nədir? Onlar Sizə nə barədə müraciət edirlər?

-Bilirsinizmi, burada da həmin müraciətlərin dinamikası var. Fikrimcə bu, bizim sosial-iqtisadi inkişafımızın əsas göstəricisidir. Mənim Prezident seçildiyim ilk illərdə infrastrukturla, məktəblərin, xəstəxanaların bərbad vəziyyəti, elektrik, qaz, su təchizatının, yolların olmaması və sair məsələlərlə bağlı müraciətlər çox olurdu. Lakin bu məsələlər həll edildikcə, əlbəttə, təkliflər tamam başqa xarakter aldı. Bu gün keçdiyimiz yola nəzər salanda görürük ki, Azərbaycanda infrastrukturla bağlı praktiki olaraq bütün məsələlər həll edilib. Son 15 ildə biz 30-dan çox elektrik stansiyası istifadəyə vermişik və elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişik. Bu ilin sonuna qədər Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatacaq. Son illərdə biz hər il 100 min hektardan çox suvarılan torpağı istifadəyə veririk. Bu, kənd təsərrüfatının inkişafına güclü təkan verir. Bu il də daxil olmaqla son 15 ildə Azərbaycanda 15 min kilometr yol çəkilib. Bunlar əhalini narahat edən əsas amillər idi. Bundan əlavə, 1 milyon 400 min iş yeri açılıb. Mahiyyət etibarilə işsizlik göstəricisi azalaraq 5 faizə endirilib. Buna görə də müraciətlərin dinamikası və mövzuları dəyişir.

Mən regionlarda çox tez-tez oluram. İlk vaxtlar yerli rəhbərlər fikirləşirdilər ki, Prezident gəldi, tapşırıqlar verdi, bir də haçan buraya gələcək. Mən isə yarım ildən sonra bir də, daha yarım ildən sonra bir də gedirdim. Yerlərdəki rəhbərlər başa düşdülər ki, qərarları yerinə yetirmək və öz işini Prezident oraya səfər edəndən-edənə deyil, hər gün görmək lazımdır. Ona görə bu cür canlı ünsiyyət mənə əlimi xalqın nəbzində saxlamaq, nəyin insanları narahat etdiyini bilmək və əlbəttə, qərarların yerinə yetirilməsinə nəzarət etmək imkanı verir. Düşünürəm ki, qarşıdakı illərdə bizim fəaliyyətimizin əsas istiqaməti idarəetmə sisteminin təkmilləşdirilməsi olacaq. Çünki artıq dediyim ki, Azərbaycanın regionlarında infrastruktur məsələləri, sosial infrastrukturla bağlı məsələlər praktiki olaraq tamamilə həll edilib. Ötən 15 il ərzində 3100-dən çox məktəb tikilib. Qeyd edim ki, bu, bütün məktəb fondunun 80 faizi deməkdir. 600-dən çox tibb müəssisəsi yenidən tikilib və ya təmir edilib. Yəni, sosial infrastruktura çox diqqət yetirirk. Qarşıdakı dövrdə əsas məsələlər idarəetmə ilə, sosial ədalətlə, pozuntularla, bəzən rast gəlinən məmur özbaşınalığı ilə bağlı olacaq. Bax, söhbətimizin əvvəlində dediyim ictimai nəzarət məhz bundan ötrü lazımdır. Mən əsasən bundan ötrü səfərlər edirəm. Yeri gəlmişkən deməliyəm ki, bu il biz Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafının üçüncü proqramını başa çatdıracağıq. Birinci proqram 2004-cü ildə qəbul edilib. Bütün bu proqramlar, onların çox hissəsi yerlərdən verilən təkliflərə əsaslanır. Yəni, bu proqramlar ümumi xarakter daşımır, bunlar şüarlar deyil. Orada hansı şəhərdə, hansı kənddə, nə vaxt hansı işlər görüləcəyi konkret əksini tapıb. Bu, bizim beşillik fəaliyyətimiz üçün əyani sənəddir. Biz üçüncü proqramı tamamlayırıq. İndidən görünür ki, biz onu xeyli artıqlaması ilə yerinə yetirmişik. Buna görə də düşünürəm ki, gələcəkdə əsas məsələ yenə də idarəetmənin təkmilləşdirilməsi, fəaliyyətimizin səmərəsinin artırılması və sahibkarlar, iqtisadiyyatın şaxələndirilməsi üçün daha yaxşı şərait yaradılması olacaq.

-Biz müasir Azərbaycan barədə demokratik, inkişaf etməkdə olan bir ölkə kimi danışırıq. Lakin hələ 100 il bundan əvvəl müasir demokratik respublika qurulması sahəsində təəssüf ki, qısamüddətli bir təcrübə olub. Siz bu hadisələrin təntənəli şəkildə qeyd edilməsi barədə müvafiq Sərəncam imzalamısınız. Sizin fikrinizcə, həmin təcrübənin hansı elementləri, 100 il bundan əvvəl demokratik respublika yaratmağın hansı mexanizmləri bu gün onlardan hansı şəkildəsə istifadə etmək üçün vacib və gərəklidir, bu təcrübə nə dərəcədə faydalıdır?

-Bu il Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Biz demokratik respublikanın 100 illik yubileyini il ərzində qeyd edirik və bu, cari ilin əsas hadisəsidir. Bilirsinizmi, tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır. Azərbaycan ədəbiyyatının klassiklərini oxuyanda görürsən ki, onların əsərlərində məhz bu gün aktual olan məsələlərlə bağlı fəlsəfi mövzular kifayət qədərdir. Buna görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir. Biz qanuni qürur hissi keçiririk ki, Şərqdə demokratiyanın əsasını qoyan məhz Azərbaycan xalqı olub. Demokratik respublikanın ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir. Siyasi islahatlar üçün qısa müddətdə çox böyük işlər görülüb. Təkcə bunu qeyd etmək kifayətdir ki, qadınlara səsvermə hüququ Avropa ölkələrinin çoxundan xeyli əvvəl verilib, bir sıra başqa mühüm qərarlar qəbul edilib. Əlbəttə, bu gün geriyə nəzər salanda birinci cümhuriyyətin banilərini minnətdarlıq hissi ilə xatırlayırıq, lakin onun aqibətindən daim ibrət dərsi almalıyıq. Bu cümhuriyyət iki ildən bir qədər az mövcud olub və biz, əlbəttə ki, bu dərsləri unutmamalıyıq. Buna görə biz bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini, iqtisadi potensialını, beynəlxalq nüfuzunu möhkəmlətmək üçün, Azərbaycanın həmişə təkcə forma etibarilə deyil, həm də mahiyyət etibarilə müstəqil olması üçün nə mümkündürsə edirik. Düşünürəm ki, əgər birinci demokratik respublikanın əsasını qoyanlar bugünkü Azərbaycanı görə bilsəydilər, onlar bizim ölkəmizlə fəxr edərdilər.

-Azərbaycan tarixən həmişə təkcə Şərqin deyil, bütün dünyanın mədəni mərkəzi olub. Son onilliklərdə Qara Qarayevin, Fikrət Əmirovun musiqisini, Səttar Bəhlulzadənin, yaxud Allaha şükür indi sağ-salamat olan Tahir Salahovun rəsm əsərlərini, Ananın və ya yaxın vaxtlarda dünyasını dəyişmiş, mənim fikrimcə böyük yazıçı olan Maqsud İbrahimbəyovun ədəbi əsərlərini götürsək, bunlar hamısı dünya mədəniyyəti xəzinəsinin tərkib hissələridir və hər bir mədəni insan bu adları bilir.

Ardı Səh. 9

# “Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub”

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsi*

Əvvəli Səh. 8

Sizin fikrinizcə, Azərbaycanın mədəni xəzinəsi nə dərəcədə onun məxsusi sərvətidir? Azərbaycanı bir sıra ölkələr arasında bu qədər fərqləndirən bu mədəni tərkib hissənin prioritet kimi qalması üçün nə etmək lazımdır?

-Şübhəsiz, mədəni irsimiz bizim böyük sərvətimizdir və biz görkəmli nümayəndələrimizlə fəxr edirik. Azərbaycan əsrlər boyu dünyaya görkəmli mütəfəkkirlər, şairlər, alimlər, ictimai xadimlər bəxş edib. Bu gün bu ənənələr davam etdirilir. Buna görə də əlbəttə, Azərbaycan mədəniyyətinin korifeyləri Azərbaycanı məşhurlaşdıran insanlardır, onlar xalqımızın mədəni irsidir və biz öz mədəni irsimizə çox qayğı ilə yanaşırıq, onu qoruyuruq. Bu gün əsas vəzifə ondan ibarətdir ki, azərbaycanlıların gənc nəsli də bizim görkəmli xadimlərimizin nümunəsində, vətənpərvərlik ruhunda, öz mədəniyyətinə bağlılıq ruhunda tərbiyə olunsun. Fikrimcə, bu, gənc nəslin tərbiyəsi baxımından əsas istiqamətlərdən biridir. Gənclər əlbəttə ki, dünya üçün açıq olmalıdırlar. Lakin onlar həm də öz tarixi, mədəni köklərinə çox bağlı olmalıdırlar. Bu, Azərbaycanın və cəmiyyətimizin fasiləsiz inkişafının rəhni olacaq. Ona görə ki, güclü iqtisadiyyatı və ya güclü ordusu, güclü xarici siyasi mövqeləri olan, lakin əsasları, kökləri olmayan xalq uğurlu ola bilməz. Buna görə müasir Azərbaycan dövləti çox dərin mədəni, milli, əxlaqi köklərə, bizim, əlbəttə ki, əziz tutduğumuz dəyərlərə əsaslanır. Əlbəttə, biz fəxr edirik ki, dünyaya bu qədər çoxsaylı görkəmli mədəniyyət xadimləri bəxş etmişik.

-Siz Azərbaycanda birinci Avropa Oyunlarının, İslam Oyunlarının keçirilməsindən danışdınız. Lakin düşünürəm ki, Azərbaycanın bu cür iri beynəlxalq yarışların keçirilməsi məkanı kimi seçilməsi təkcə Azərbaycanda yaxşı idman qurğularının olması ilə bağlı deyil. Bu, ilk növbədə, onun etiraf edilməsidir ki, Azərbaycan get-gedə daha artıq dərəcədə ciddi idman dövlətinə çevrilir. Mən fikir vermişəm, bu gün Azərbaycan idmançıları, məsələn, Yay Olimpiadalarından qayıdarkən özləri ilə təkcə güləş kimi ənənəvi idman növlərində deyil, həm də ümumiyyətlə Azərbaycan üçün ən gözlənilməz idman növlərində medallar gətirirlər. Bununla əlaqədar, Siz Azərbaycanın həyatının bu tərkib hissəsinin inkişafının nə dərəcədə vacib hesab edirsiniz ki, millət həqiqətən sağlam böyüsün, idman inkişaf etsin? Bunun üçün nə edirsiniz?

-Bilirsinizmi, Azərbaycan Milli Olimpiya Komitəsinə 20 ildən artıq rəhbərlik edən bir şəxs kimi deməliyəm ki, biz bu istiqamətdə çox iş görmüşük və idmanın, bizim nailiyyətlərimizin ardıcıl inkişafı əsas göstəricidir. Yəni, biz bir neçə istiqamət üzrə irəliləmişik. Bu istiqamətlərdən birincisi və ən başlıcası kütləvi idmandır. Bu, cəmiyyətin həm fiziki, həm də mənəvi sağlamlığının əsasıdır. Ona görə ki, idmançılarımız bizi təkcə qələbələrlə sevindirmir, onlar cəmiyyətdə davranış üçün yaxşı nümunələrdir, onlar çox ləyaqətli insanlardır, özlərini ləyaqətlə aparır və uşaqlar üçün yaxşı nümunədirlər. Biz bütün ölkədə Olimpiya İdman mərkəzlərinin tikintisi ilə məşğul olmağı qərara aldıq. Artıq bu gün ölkədə 43 belə mərkəz vardır və daha 4 mərkəz inşa edilməkdədir. Əlbəttə, Bakının idman infrastrukturu istənilən yarışları qəbul edə bilər, biz bunu Avropa Oyunlarında nümayiş etdirdik. Təbii ki, peşəkar idmana da böyük diqqət yetirilib və idmançılarımız bizi, əlbəttə, çox sevindirirlər və sevindirəcəklər. Bunu demək kifayətdir ki, Rio-de-Janeyroda keçirilmiş son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə olub. Təsəvvür edin, dünyanın 200-dən bir qədər az ölkəsi arasında medalların sayına görə 14-cü yerdə olmaq tarixi nailiyyətdir. İyirmi il bundan əvvəl bunu heç xəyalımıza gətirə bilməzdik. Biz bir, iki, üç medal arzu edirdik. Bu gün onlarca medalımız var. Bu, idmanın inkişaf göstəricisidir. Axı, idmançı əbədi yaşamır. Bu, o demək deyil ki, hansısa görkəmli idmançı filan qədər medal qazanıb. Bizdə hər il idmanın demək olar ki, bütün növləri üzrə yeni idmançılar yetişir.

Məqsədli proqramlar, çox güclü dövlət dəstəyi var və bizdə idmanın inkişafı ilə məşğul olan bütün strukturlar əlaqəli şəkildə fəaliyyət göstərir. Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri - bunlar hamısı bir komanda kimi idman nailiyyətlərinin çox olması üçün çalışırlar. Ona görə ki, bu, təkcə milli qürur mövzusu deyil, ictimai həyatın çox mühüm amilidir. Ona görə ki, bu, əhvalı yüksəldir, vətənpərvərlik hissini, öz ölkəsinə görə qürur hissini artırır. Ən başlıcası bizim çempionlar gənc nəsil üçün yaxşı nümunədir ki, gənclər siqaret çəkməsinlər, içki içməsinlər, vaxtlarını boş keçirməsinlər, idman seksiyalarına getsinlər, yüksək nəticələr qazansınlar, onda ölkə buna görə onları layiqincə qiymətləndirəcək.

-İlham Heydər oğlu, əlbəttə, Azərbaycan iqtisadiyyatda kəskin rəqabət dövrü yaşayır. İdmançılar rəqabətdədirlər. Lakin mənə belə gəlir ki, Azərbaycan bir məsələdə - mətbəx sahəsində uzun illər boyu mütləq dünya çempionudur. Özü də mən bunu ekspert kimi deyirəm. Bəlkə də kimsə mənimlə razılaşmaya bilər. Lakin mən buna əmin olduğuma görə hesab edirəm ki, Azərbaycan mətbəxinin real rəqibləri yoxdur. Bununla əlaqədar bilirəm ki, Siz, ümumiyyətlə, yemək məsələsində vasvası deyilsiniz, lakin buna baxmayaraq, Azərbaycan mətbəxinin Sizin xoşladığınız yeməkləri, belə deyək, Azərbaycan Prezidentinin menyusu nədən ibarətdir? Bu gün Azərbaycan mətbəxinin pərəstişkarları həddən çoxdur, elə adam yoxdur ki, burada olsun və buradan gedərkən Azərbaycan mətbəxinə heyran olduğunu bildirməsin. Üstəlik, Sizin burada olmuş həmkarlarınızın çoxu ilə öz proqramım çərçivəsində ünsiyyətdə olmaq şərəfinə nail olmuş bir insan kimi deyə bilərəm ki, Azərbaycandan söhbət düşəndə, sözün düzü, onlar Sizin çox danışdığınız məsələlər barədə danışmırlar, ilk növbədə, mətbəxdən başlayırlar. Lakin bu da bir göstəricidir.

-Əlbəttə, hər bir xalqın mətbəxi onun mədəniyyətinin, ənənələrinin və imkanlarının göstəricisidir. Azərbaycan mətbəxi çox rəngarəngdir, çox dadlıdır, lakin çox təhlükəlidir.

-Bəs təhlükə nədən ibarətdir?

-Təhlükə məhz nəzarətsiz çəki artımındadır.

-Bilirsinizmi, üzr istəyirəm, mən hətta turizm sahəsinə rəhbərlik edən dostlarıma və həmkarlarıma da demişəm ki, belə bir gözəl ifadə var - Azərbaycan arıqlamaq istəməyənlər üçün cənnətdir. Bax, belə bir deyim yaranıb.

-Zənnimcə siz haqlısınız. Buna görə mən gündəlik həyatımda sui-istifadə etməməyə çalışıram, hərçənd, əlbəttə, hesab edirəm ki, Azərbaycan mətbəxindən dadlı heç nə yoxdur. Düşünürəm ki, hər bir xalqın nümayəndəsi öz mətbəxini xoşlayır. Mən də istisna deyiləm. Lakin gündəlik həyatımda hər halda bir qədər uzaq durmağa çalışıram. Azərbaycan mətbəxindən xoşladığım yeməklərə gəldikdə isə deməliyəm ki, mən bu yeməklərin praktiki olaraq hamısını xoşlayıram. Lakin ən çox xanımım Mehribanın hazırladığı yeməkləri xoşlayıram. Bu məsələdə o, yaxşı mütəxəssisdir, əlbəttə, mənə və ailəmizin bütün üzvlərinə çox sevinc bəxş edir, özünün kulinar əsərləri ilə bizi sevindirir.

-İndiki vaxtda bu, xüsusilə qiymətlidir, çünki Mehriban xanım həm də Birinci vitse-prezident funksiyalarını yerinə yetirir və onun başqa vəzifələri, məsuliyyəti çoxdur. Onun bu işə də vaxt tapması, mənim fikrimcə, xüsusilə dəyərlidir.

-Bəli. Biz, əlbəttə, bunu qiymətləndiririk və ailə üzvlərinə bu cür qayğısına görə ona çox təşəkkür edirik.

-İlham Heydər oğlu, artıq uzun illərdir ki, Sizi tanımaq şərəfinə nail olmuşam. Lakin mən mətbuatda da maraqlanmışam, bir məsələ ilə heç vaxt üzləşməmişəm... Başa düşmüşəm ki, Sizin heç bir hobbiniz yoxdur. Sizin elə həmkarlarınız var ki, ... birisi marka toplayır, lakin mən Sizi, məsələn, əlinizdə qarmaq tutmuş vəziyyətdə və ya başqa bir görkəmdə təsəvvür edə bilmirəm. Mən belə başa düşdüm ki, ümumiyyətlə, Sizin konkret hobbiniz yoxdur. Halbuki hobbi stresi bir qədər götürmək, rahatlaşmaq üçündür. Siz nəyin hesabına əlavə enerji alırsınız və Prezident stresini nəyin hesabına aradan götürə bilirsiniz? Axı, bu stresin əlindən yaxa qurtarmaq mümkün deyil.

-Bəli, mənim məxsusi hobbim yoxdur. Lakin hesab edirəm ki, sənə sevinc, məmnunluq gətirən işlə məşğul olmaq elə hobbidir. Mənə gəldikdə, əməyimin nəticələrini görmək ən böyük sevincdir. İnanın, bu sözləri elə-belə, kamera üçün demirəm, bu, həqiqətən belədir. Əlbəttə, görəndə ki, nəzərdə tutulan işlər yerinə yetirilib, görəndə ki, Azərbaycanın inkişafının bu və ya digər sahəsində irəliləyiş var, bu, mənə böyük mənəvi zövq verir. Bu, hər bir hobbidən yaxşıdır. Buna görə düşünürəm ki, mən hansısa məxsusi hobbinin olmamasını bu yolla kompensasiya edirəm. Bundan əlavə, əlbəttə, asudə vaxtımı ailəmlə keçirirəm və yəqin ki, orada həm də həyat üçün enerji alıram. Mən o insanlardanam ki, işə sevinə-sevinə gedir və işdən evə sevinə-sevinə qayıdır.

-İlham Heydər oğlu, sonuncu sual. Bilirsiniz, bu sual onunla bağlıdır ki, fikir vermişəm, son vaxtlar Siz gənclərlə çox tez-tez ünsiyyətdə olursunuz, gənclərin tədbirlərinə gedirsiniz, gəncləri qəbul edirsiniz. İndi mən belə deyərdim, XXI əsrin ilk siyasi nəsli həyata qədəm qoyur və qüvvə toplayır. Bu siyasi nəsil indiki siyasi nəsli əvəz edəcək. Siz indiki siyasi nəsli istər-istəməz əvəz edəcək müasir Azərbaycan gəncliyini necə təsəvvür edirsiniz və onu necə görmək istərdiniz - bu gənclik çox maraqlı, çox fərqlidir.

-Bəli. Siz tamamilə haqlısınız. Mənim fikrimcə, bu, istənilən ölkə rəhbəri üçün ən vacib fəaliyyət istiqamətidir. Çünki gənclər gələcək rəhbərlərdir, bu insanlar ölkənin gələcəyini müəyyən edəcəklər, ona görə bu gələcək etibarlı əllərdə olmalıdır. Mən şadam ki, bu gün Azərbaycan gəncliyi ən yüksək tələblərə cavab verir. Düşünürəm ki, gələcəkdə bu istiqamətdə daha fəal siyasət yürüdəcəyik. Əlbəttə, mən istərdim ki, bütün Azərbaycan gəncləri öz Vətəninə sadiq olsunlar. Çünki öz Vətənini sevmək və ona namusla xidmət etmək müstəqilliyin, müvəffəqiyyətin əsas rəhnidir. Əlbəttə, gənclərin Azərbaycan xalqı üçün səciyyəvi olan ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsi vacibdir və biz bunun üçün nə lazımdırsa edirik.

Bizim milli mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, milli ideologiyamız - bütün bunlar bizim dəyərləri təbliğ edir və biz həmişə öz mənəvi köklərimizə bağlı olmalıyıq. Gənclik müdafiə olunmalıdır. Lakin o özü kənar təsirlərdən müdafiə olunmalıdır. Ona görə ki, müstəqilliyin ilk illərində çoxları düşünürdü ki, kimsə gələcək, necə yaşamaq lazım olduğunu bizə göstərəcək, bizə kömək edəcək. O vaxt belə ələbaxımlıq hissi yaranmışdı. Lakin sonra anladıq ki, bizim taleyimiz öz əlimizdədir. Bu gün kimsə bizə təkidlə müəyyən kömək göstərmək istəyəndə biz buna həmişə kifayət qədər şübhə ilə yanaşırıq. Buna görə gənclər anlamalıdırlar ki, Azərbaycanın gələcəyi azərbaycanlıların özlərinin, Azərbaycan vətəndaşlarının əlindədir. Gənclər müəyyən ideoloji təsirləri qiymətləndirərkən çox diqqətli olmalıdırlar. Başqa sözlə desək, gəncliyi kənar mənfi təsirdən qorumaq, mənim fikrimcə, bizim ideoloji işimizin başlıca istiqamətlərindən biridir. Eyni zamanda, bizim gənclik, əlbəttə, dünyaya, ən müasir, ən mütərəqqi dəyərlərin hamısına açıq olmalıdır. Ümumiyyətlə, qısaca desək, bizim idarəçilik formulumuz ondan ibarətdir ki, dövlət çox möhkəm ənənəvi köklərə əsaslanır. Azərbaycan xalqı bu ənənəvi dəyərlərlə yaşayıb, yaşayır və yaşayacaqdır. Biz ənənələrimizə, mədəniyyətimizə, dilimizə, dünyabaxışımıza sadiq olmalıyıq. Eyni zamanda, biz ölkəmizi modernləşdirmək, onun potensialını artırmaq, cəmiyyətimizin dünyəvi xarakterini möhkəmlətmək və bununla da fasiləsiz inkişafı təmin etmək üçün bütün ən yaxşı, mütərəqqi dəyərləri qəbul etməliyik. Biz ideal halda bu mənzərəni görmək istərdik. Biz buna çox cəhətdən nail olmuşuq, gələcəyin gəncləri isə öz fəaliyyətlərini məhz bu istiqamətdə qurmalıdırlar.

-Çox sağ olun, İlham Heydər oğlu. Söhbətə görə sağ olun.

-Sağ olun.

## Moldova Mərkəzi Seçki Komissiyasının və parlamentinin nümayəndə heyəti Azərbaycanda prezident seçkilərini müşahidə edəcək

Aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərini Moldovanın Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Alina Russunun rəhbərlik etdiyi nümayəndə heyəti də müşahidə edəcək. Bu barədə AZƏRTAC-a məxsusi olaraq Moldova MSK-nın mətbuat xidmətindən məlumat verilib.

Məlumata görə, Moldova MSK-nın seçki müşahidəçiləri aprelin 10-dan Azərbaycanda səfərdə olacaqlar. Onlar səsvermə günü bir neçə məntəqədə müşahidəçilik missiyasını həyata keçirəcəklər.

Moldova parlamentindən isə AZƏRTAC-a bildiriblər ki, parlamentin vitse-spikeri Vladimir Vityuk da Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə edəcək. Bundan başqa, Moldova parlamentinin deputatları ATƏT, Avropa Şurası və MDB Parlament Assambleyası çərçivəsində prezident seçkilərini izləyəcəklər.

11 Aprel 2018
www.yap.org.az
#ilhamlaireli
İlhamla irəli

səs ®

www.sesqazeti.az
facebook
Ses Media Holding

6 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!






## Masallı rayonunda seçicilərlə izdihamlı görüş keçirilib





***Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri davam etdirir.***

Kampaniya çərçivəsində izdihamlı mitinq-görüş keçirilib. Tədbiri giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının Masallı rayon şöbəsinin sədri Seyfəddin Əliyev açaraq, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticələrindən bəhs edib: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf siyasəti Onun layiqli davamçısı olan Möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla və əzmlə davam etdirilir. Məhz bunun nəticəsi olaraq, Azərbaycan həm yerləşdiyi coğrafiyada, həm də ümumilikdə beynəlxalq aləmdə böyük nüfuz və mövqe qazanıb. Sözsüz ki, bütün bunlar ölkəmizdə mövcud olan sarsılmaz ictimai-siyasi sabitlik fonunda reallaşıb. Azərbaycan öz iqtisadi-siyasi qüdrətini artırdıqca ölkəmizin mövqeləri daha da möhkəmlənir".

Rayon təşkilatının sədri bildirib ki, Masallı ictimaiyyəti, birmənalı şəkildə, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevi dəstəkləyir: "Rayon ictimaiyyəti dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətini böyük məmnunluqla qarşılayır. Böyük ruh yüksəkliyinin fonunda qeyd edə bilərəm ki, Masallı seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə etimad göstərəcəklər. Bununla seçicilər inkişafı, firavanlığı və sabitliyi seçmiş olacaqlar". Görüşdə çıxış edən Milli Məclisin deputatı Nəriman Əliyev isə, diqqətə çatdırıb ki, seçicilərlə görüşlərdə aydın olur ki, hər bir seçici partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir: "Bu, Azərbaycan xalqının mövqeyidir. Son 15 il ərzində Cənab Prezidentin fəaliyyəti Azərbaycan xalqının gözləri önündədir. Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması Cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də, hesab edirik ki, Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir".

Görüşdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev bildirib ki, ötən 15 il ərzində dövlət başçısının reytinqi xalq arasında əhəmiyyətli dərəcədə yüksəlməkdə davam edib: "Bu sosial-siyasi göstərici ölkə rəhbərinin effektiv fəaliyyətinin nəticəsidir. Bütün bunların nəticəsi kimi, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin parlaq qələbə qazanacağı heç kəsdə şübhə doğurmur". Tədbirdə Milli Məclisin deputatı Elmira Axundova, Azərbaycan Tibb Universitetinin professoru Vəsadət Əzizov, Respublika Veteranlar Şurasının sədr müavini Cəlil Xəlilov və başqaları çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs ediblər. Natiqlər Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə əzəmətli qələbə qazanacağına inandıqlarını bildiriblər.

Tədbir konsert proqramı ilə davam etdirilib.

---






## Ucar seçiciləri: Bizim seçimimiz məhz Cənab İlham Əliyevdir!

***Dünən Ucar rayonunda prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi rayonun Lək kəndində mitinq keçirib.***

Mintinqi giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, Cənab İlham Əliyevin misilsiz xidmətləri haqqında məlumat verərək, bildirdi ki, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. Şəhla Abdullayeva seçiciləri Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov, Bakı Slavyan Universitetinin professoru, "Əməkdar müəllim" Nizami Məmmədov və Alı Babayev çıxış edərək, bütün seçiciləri konstitusion hüquqlarından istifadə edərək, Azərbaycan dövlətinin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçkilər prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırdılar.




Seçicilər adından Sevda Abdullayeva və İbiş Məmmədov çıxış edərək, bildirdilər ki, Azərbaycanın dinamik inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən, nəinki regional, hətta qlobal mərkəzə çevirməkdədir. İlk növbədə, siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Çıxış edənlər sonda seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan etdilər.

**RÖVŞƏN**

# Xalq İlham Əliyevə “HƏ” deyir!




## Qüdrətli Azərbaycan naminə Oğuz seçiciləri “İlhamla irəli” deyəcək

***Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi tərəfindən prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Oğuz şəhərində zirvə görüşü keçirilib.***

Görüşdə çıxış edən YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov bildirib ki, son 15 ildə ölkəmiz yüksək inkişaf yolu keçib: “Ölkə başçısı Cənab İlham Əliyevin reallaşdırdığı uğurlu layihələr, apardığı islahatlar nəticəsində, bütün Azərbaycanda olduğu kimi, Oğuz rayonunda da böyük işlər görülüb. Şübhəsiz ki, bütün bunlar Ulu Öndər Heydər Əliyev ideyalarını layiqincə həyata keçirən Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir. Bu uğurlu siyasət dövlətçiliyimizin, xalqımızın inkişafına və tərəqqisinə yönəlmişdir. Bildiyimiz kimi, Azərbaycanda bütün sahələrdə davamlı inkişafı təmin etmək üçün konkret dövlət proqramları həyata keçirilir. Dövlət proqramlarının bugünkü uğurlu nəticələri, bir daha sübut edir ki, məqsədyönlü şəkildə reallaşdırılan effektiv islahatlar bütün sahələrin paralel inkişafını təmin edib. Təbii ki, bu nailiyyətlər ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və cəmiyyətimiz xalqın mənafeyinə xidmət edən bu siyasi kursu dəstəkləyir”.





YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon təbliğat-təşviqat qrupunun üzvləri Emin Əzimli, Cuma Cumayev, İsmayıl Məşədiyev və Mehriban Abbasova çıxış edərək, vurğulayıblar ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Çıxış edənlər qeyd ediblər ki, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Liderin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən davam etdirilən daxili və xarici siyasət xəttinə sadiqlik dayanır. Bildirilib ki, bu gün hər birimiz Azərbaycan naminə, Yeni Azərbaycan Partiyasının Sədri, Möhtərəm Prezident Cənab İlham Əliyevin apardığı siyasətə dəstək olaraq, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol ilə gedərək, dövlətimizin inkişafı üçün səylərimizi əsirgəməyərək, “İlhamla irəli” addımlamalıyıq.

Seçicilərdən Elçin Kərimov, Ramiz Mahmudov, Yeganə Süleymanlı çıxış edərək bildiriblər ki, son 15 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atıb. Cənab Prezident İlham Əliyev qarşıdakı illərdə iqtisadi, siyasi və sosial sahələrin daha da yüksək səviyyədə inkişafını təmin edəcək, vətəndaşlarımızın rifah halının daha da yüksəldilməsinə şərait yaradacaq. Onlar əminliklə bildiriblər ki, Oğuz seçiciləri yekdilliklə 11 aprel seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Milli Məclisin komitə sədri Aqiyə Naxçıvanlı çıxışında bildirib ki, son 15 ildə Prezident İlham Əliyevin apardığı siyasət, milli maraqların keşiyində qətiyyətlə dayanması ölkə vətəndaşlarında Ona münasibətdə böyük inam formalaşdırıb. Ölkədəki uzunmüddətli sabitliyin və inkişafın müəllifi Cənab İlham Əliyevdir. Respublikamızda Cənab İlham Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq, yaranan müsbət reallıqlar insanlarda qürur hissi və gələcəyə böyük inam yaradır. Azərbaycan xalqı 15 ildir ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin sayəsində firavanlıq şəraitində yaşayır və öz xoşbəxt gələcəyini qurur. Milyonlarla insanın və seçicilərin amalı budur ki, Cənab İlham Əliyev yenə də dövlət başçısı seçilsin və Azərbaycanın inkişafı bundan sonra da davam etsin! A.Naxçıvanlı qarşıdakı 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə bütün Oğuz seçicilərini “İlhamla irəli” səsləyərək, 11 aprel prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üçün çağırış edib.

**ZÜMRÜD**

***Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin seçki qərargahının üzvləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində izdihamlı zirvə görüşü - mitinq-konsert keçirib.***






## Qusar seçiciləri daha qüdrətli Azərbaycana doğru “İLHAMLA İRƏLİ!” şüarı ilə gedir

Toplantıda çıxış edən YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov qeyd etdi ki, bu gün böyük qürurla ölkəmizdə həyata keçirilən nəhəng beynəlxalq layihələrin icrası, aparılan uğurlu iqtisadi proqramların nəticəsində, ölkəmiz beynəlxalq aləmdə nüfuz sahibinə çevrilmiş və vətəndaşlarımızın maddi rifah halı xeyli yaxşılaşmışdır. İşsizlik 5 faizə enmiş, yeni-yeni iş yerləri açılmış, şaxələnmiş iqtisadiyyat inkişaf etdirilmişdir. Rayon təşkilatı sədri bu və bu kimi digər əhəmiyyətli amilləri nəzərə alaraq, xalqımızın növbəti dəfə düzgün seçimini edəcəyini bildirdi: “Azərbaycan xalqı bir daha Cənab İlham Əliyevə dəstək verərək, aprelin 11-də partiyanın namizədinə səs verəcək. Qusarlı seçiciləri də nailiyyətlərin, uğurların və qələbələrin davamına görə Cənab İlham Əliyevə səs verməyə çağırıram”.

Mitinqdə çıxış edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmov, Milli Məclisin üzvlərindən İlham Əliyev, Azər Badamov, YAP Qusar rayon təşkilatının qadınlar şurasının sədr müavini Neva Avdurahmanova çıxış edərək, ölkəmizdə aparılan uğurlu islahatların, son 15 ildə həyata keçirilən layihələrin əhəmiyyətindən danışdılar. Qeyd olundu ki, qarşıdan gələn 11 aprel prezident seçkiləri xalqımız üçün əsl bayram əhvali-ruhiyyəsi yaradır. Yaşayış səviyyəmizin yaxşılaşmasını həm öz həyatımızda, həm də bütünlüklə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq-abadlıq işlərində hiss edirik.



Çıxış edənlər növbəti 7 ildə qazanılacaq daha möhtəşəm uğurlar naminə seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar.

Sonda incəsənət ustalarının çıxışları ilə mitinq davam etdi.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Sabunçu seçicilərinin seçimi dəyişilməzdir - "İLHAMLA İRƏLİ!"

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi tərəfindən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon seçicilərilə növbəti görüş keçirilib.





Görüşü giriş sözü ilə YAP Sabunçu rayon təşkilatının sədri  Mehriban Abasquliyeva açaraq, modernləşən və müasirləşən Azərbaycanda gedən davamlı inkişafdan danışaraq şəhərlərimizin, bölgələrimizin inkişaf və tərəqqisini qeyd edib. Ölkəmizdə xalq-iqtidar birliyinin və sabitliyimizin davamlı olmasının, məhz bütün sahələrdə sürətli inkişaf tempi yaratmasına əsas olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ölkəmizdə genişmiqyaslı sosial siyasət aparılır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Təbii ki, ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi və yoxsulluğu aradan qaldırmaqdır.

M.Abasquliyeva bildirib ki, bugünkü rifah və xoşbəxt həyata görə hər bir vətəndaş, məhz Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, Möhtərəm İlham Əliyevə səs verəcəkdir: "Sabunçu seçicilərinin seçimi dəyişilməzdir - İlhamlı sabahlara doğru, "İLHAMLA İRƏLİ!"

Görüşdə çıxış edən partiya fəallarından professor Rasim Nəbiyev, millət vəkili Dilarə Cəbrayılova, YAP Sabunçu rayon qadınlar şurasının sədri Ramidə İbrahimova son illərdə həyata keçirilən abadlıq-quruculuq işlərinin rayonların, kəndlərin inkişafında mühüm rol oynadığını bildirərək, bir sıra təhsil, səhiyyə və mədəniyyət ocaqlarının təmir olunduğunu diqqətə çatdırıblar. Çıxış edənlər bir daha seçiciləri 11 apreldə YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə iştirak edən seçicilər Azərbaycanın daha da inkişafı naminə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## İsmayıllıda seçicilərlə görüşlər davam edir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Seçicilərlə növbəti görüş  rayonun Ruşan kəndində keçirilib.






Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşına, həmçinin dünyanın tanınmış ictimai-siyasi xadimlərinə də bəllidir ki, Azərbaycan dünyada demokratiya yolu ilə inkişaf edən, güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malik və bütün azadlıqların təmin olunduğu ölkə kimi tanınır. Sabitlik, təhlükəsizlik və tolerantlıq dövlət siyasətinin prioritetini təşkil edir. S.Əhmədova seçiciləri prezident seçkilərində partiyanın layiqli namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Zaur Muradov, Valeh Salehov çıxış edərək, qeyd ediblər ki, son 15 il ərzində Azərbaycanın uğurlu və şərəfli yol keçdiyi beynəlxalq aləmdə də etiraf olunur. Bu müddət ərzində, respublikamız beynəlxalq hüququn müstəqil subyekti və suveren dövlət kimi formalaşıb. Məhz bunun nəticəsidir ki, bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlər ölkəmizin dünyadakı nüfuzunu getdikcə artırıb. Ötən ilin aprel döyüşləri bu reytinqi daha da yüksəldib. Artıq dünya birliyinə də, bəlli oldu ki, Azərbaycanda ən müasir silahlarla təmin olunmuş, mətin və qüdrətli ordu formalaşmışdır. Bu ordu istənilən vaxt düşmənə layiqli zərbə vurmağa qadirdir. Artıq işğal altında olan ərazilərimizə qayıdırıq. Bu tarixi qələbəni xalqımıza Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və qüdrətli ordumuz bəxş edib.

Görüşdə çıxış edən Ruşan kənd sakinləri Rəna Məmmədova, İnqilab Məmmədov, Əvəz Əmirov, Sevda Səfixanova bütün seçiciləri dövlətimizin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçki prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış Cənab İlham Əliyevə səs verməyə çağırdılar. Onlar qeyd etdilər ki, İsmayıllı seçiciləri növbəti dəfə Cənab İlham Əliyevi dəstəkləyəcək, Azərbaycanın daha da güclənməsinə səs verəcəkdir.

## Binəqədi qadın  seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Binəqədi rayonunun fəal qadınları ilə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən və dövlət maraqlarına xidmət edən silsilə uğurlu islahatlardan danışıb. Azərbaycanda iqtisadiyyatın, sosial həyatın, yol infrastrukturunun, nəqliyyat, təhsil, səhiyyə və digər sahələrdən görülən işlər və qazanılan müvəffəqiyyətlərdən danışıb. R.Göyüşov, eyni zamanda, cəmiyyətimizdə qadınların fəal iştirakından danışaraq, qadınların hərtərəfli inkişafı, fəallaşması istiqamətində münbit şəraitin yaradıldığını bildirib. Bütün qadın seçiciləri qarşıdan gələn prezident seçkilərində sabitliyimizin, inkişafımızın, xalqımızın ən böyük dəstəkçisi olan Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin komitə sədri Eldar İbrahimov çıxışında bildirdi ki, Azərbaycan qadınları tariximizin bütün dövrlərində






xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı və dövlət məmurudur. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Bu gün respublikamızda dövlət-qadın siyasəti, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələr ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Milli Məclisin komitə sədri Ziyad Səmədzadə görüşdə çıxış edərək, bildirdi ki, bu gün Azərbaycan qadınının bütün sahələrin inkişafındakı rolu əvəzsizdir və danılmazdır. Azərbaycan qadınları, sözün əsl mənasında, qəhrəmandırlar. Onlar ana adını şərəflə daşıyır, övladlarının tərbiyəsində mühüm rol oynayır, eyni zamanda, ictimai-siyasi sahələrdə öz fəallığı ilə seçilirlər. Qadınlarımızın ölkəmizin həyatındakı mövqeyi günü-gündən artır və əldə etdikləri uğurlar hər birimizi sevindirir. Bu gün Azərbaycan qadını təkcə yerli tribunalardan deyil, beynəlxalq tribunalardan da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal rol oynayır.

YAP Binəqədi rayon təşkilatı qadınlar şurasının sədri, Aytac Əliyeva çıxışında qeyd etdi ki, Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası və yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahı-

# Xalq İlham Əliyevə "HƏ" deyir!

na, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Azərbaycan dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldıraraq, qadınların bərabər hüquqlarını və imkanlarını təmin etməyə yönəlmişdir. Bu siyasət daimi və dönməz səciyyə daşımaqla, bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub-saxlamağa imkan verəcək.

Azərbaycan Respublikasının əməkdar artisti, xanəndə Elnarə Abdullayeva çıxış edərək, ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə mədəniyyətimizin inkişafına göstərilən dövlət qayğısından danışdı və bütün qadınları və qadın həmkarlarını qarşıdan gələn Prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə dəvət edib.

Görüşdə çıxış edən bir qrup qadın seçici ölkəmizdə aparılan siyasəti bəyəndiklərini, dəstəklədiklərini bildirərək, 11 aprel 2018-ci il tarixdə hamılıqla seçkilərə gedəcəklərini və Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qəbələ seçiciləri sabitliyə, uğurlu gələcəyə - Cənab İlham Əliyevə səs verəcək

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində təhsil və mədəniyyət sahəsində çalışan seçicilərlə, Vəndam qəsəbəsində isə Vəndam, Seyidqışlaq, Məmmədağalı və Həzrə kəndindən olan seçicilər-





lə növbəti görüşlər keçirib.

Hər iki görüşü giriş sözü ilə açan YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov ölkəmizdə prezident seçkilərinin demokratik, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində görülən mütərəqqi işlər barədə məlumat verib və hamını seçkidə fəal iştirak etməyə, ən layiqli namizəd olan, alternativsiz lider Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov son 15 ildə ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişaf etməsini, Azərbaycanın hazırda regionun lider dövləti olmasını, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin xeyli güclənməsini, ölkəmizin həm regionda, həm də dünyada mövqeyinin ciddi şəkildə möhkəmləndirməsini görüş iştirakçılarının diqqətinə çatdırıb. Fəttah Heydərov, xüsusilə, vurğulayıb ki, Cənab İlham Əliyevə səs vermək, möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə səs vermək deməkdir. Millət vəkili bir daha seçiciləri 11 apreldə YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə seçicilərdən Ümüdvar Həsənov, Sara Soltanzadə, Aygün Şərifova, Səbinə Mirzəmmədli, Şənlik Tağıyev, Ruslan İsmayılov, İfadə Məsimova, İradə Cəlilova və Seyidağa Həmidov çıxış edərək, ölkədə aparılan köklü islahatlardan bəhs ediblər və bu istiqamətdə Cənab İlham Əliyevin uğurlu siyasət həyata keçirdiyini vurğulayaraq, 11 aprel 2018-ci ildə seçki məntəqələrinə gələrək, sabitliyə və uğurlu gələcəyə - Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qubalı gənclər "İLHAMLA İRƏLİ!" - deyir

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba şöbəsinin seçki qərargahının üzvləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-






təşviqat kampaniyası çərçivəsində rayon gəncləri ilə görüş keçiriblər.

Görüşdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son 15 il ərzində inanılmaz dərəcədə dəyişdiyini və inkişaf etdiyini bildirib. Qeyd edib ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olub, insan hüquq və azadlıqları təmin edilib. Bütün sahələrdə olduğu kimi, ölkə başçısının gənclərə göstərdiyi diqqət və qayğıdan da danışaraq, vurğulayıb ki, Azərbaycanın hər bir yerində inşa olunan yeni-yeni Olimpiya İdman Kompleksləri gənclərin sağlam ruhda böyüməlırinə zəmin yaradıb. Bu gün gənclərimiz dünyanın istənilən bir ölkəsində təhsil almaq hüququna malikdir. O, qubalı gənc seçiciləri öz hüquqlarından bəhrələnərək, partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə rayon təşkilatının təbliğat qrupunun üzvləri Həsən Günəşli və Habil Bayramlı çıxış edərək, son 15 il ərzində ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu iqtisadi islahatlardan söhbət açıblar. Ölkə Prezidentinin regionların sosial-iqtisadi inkişafından, ordu quruculuğundan, elm və təhsil sahəsindəki siyasətdən danışaraq, qubalı gənc seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Seçicilər adından çıxış edənlər 11 apreldə Cənab İlham Əliyevə səs verməklə xoşbəxt gələcəklərinə səs verəcəklərini bildiriblər.

## Qax seçiciləri işıqlı gələcəyə səs verəcəklər

Dünən Qax rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qıpçaq, Amanlı, Tanqıt və Baydarlı kəndlərinin sakinləri ilə görüş keçirilmişdir. Görüşdə çıxış edən təbliğat-təşvi-





qat qrupunun üzvləri Xalid Heydərov və Müzəffər Səfərov Cənab İlham Əliyevin Azərbaycanın çiçəklənməsi naminə gördüyü böyük işlərdən danışdılar. Qeyd etdilər ki, 2003-cü ildən sonrakı dövrdə Cənab Prezident İlham Əliyev Azərbaycan xalqının sosial rifahının yüksəldilməsi sahəsində, ölkənin neft strategiyasının müəyyənləşməsində, iqtisadiyyatın, mədəniyyətin, yerli özünüidarənin, idmanımızın inkişafında, əhalinin sosial problemlərinin həllində çox vacib işlər görərək, Azərbaycanımızı bugünkü inkişaf mərhələsinə çatdırmışdır. Heç bir dövlətin belə qısa müddət ərzində qazana bilmədiyi uğurları Prezident İlham Əliyev öz gərgin əməyi, istedadı, bacarığı sayəsində reallaşdıraraq, Azərbaycanı qüdrətli dövlətə çevirdi. Cənab İlham Əliyev dünyanın siyasi arenasında müstəqil siyasət yeridən, xalqına və dövlətinə şərəflə xidmət edən bir şəxsiyyət kimi çoxdan tanınmışdı. Təbliğat-təşviqat qrupunun üzvləri seçiciləri 11 apreldə Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırdılar.

Tədbirlərdə çıxış edən seçicilərdən Aydın Qurbanov, Həsən Həsənov və Bədrəddin Əzizov vurğuladılar ki, Cənab İlham Əliyev Azərbaycanın inkişaf üçün nümunəvi xidmətlər göstərib. İşgüzarlığı, qabiliyyəti və böyük şəxsiyyətlərə xas olan xüsusiyyətləri ilə seçilən Cənab İlham Əliyev bir çox siyasətçilər üçün örnəkdir. Biz əminik ki, Azərbaycan xalqı 11 apreldə seçki məntəqələrinə gələrək, öz gələcəklərinə səs verəcəklər.

Ardı Səh. 14

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 13

## Balakənin səhiyyə işçiləri Cənab İlham Əliyevə “HƏ” deyir

Dünən Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Balakən rayon təşkilatının təbliğat qrupunun rayonun səhiyyə işçiləri ilə görüş keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev çıxış edərək rayon səhiyyəsi, onun maddi-texniki bazası haqqında görüş iştirakçılarına məlumat verib. Görüşdə çıxış edən rayon səhiyyə şöbəsinin baş həkimi Dilbər Quliyeva 2006-cı ildən rayon səhiyyəsinə Cənab İlham Əliyevin göstərdiyi dəstəyindən, yeni xəstəxana binasının tikilməsindən, rayon səhiyyəsinə aid tibbi avadanlığın ayrılaraq alınmasından, həkimlərin peşəkarlıq səviyyəsinin yüksək olmasından söz açıb və səhiyyə işçilərini bu uğurların davamı üçün Cənab İlham Əliyevə səs verməyə çağırıb.






Görüşdə 2006-cı ildə Prezident İlham Əliyevlə görüşmüş həkim Rəisət Tinayeva çıxış edərək rayon səhiyyəsinə göstərdiyi qayğıya görə, ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. O, Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə ildə iki dəfə əhalinin tibbi müayinədən keçirilməsinə nail olduqlarını Azərbaycanın səhiyyə sisteminin daim yeniləndiyini görüş iştirakçılarının diqqətinə çatdırmışdır.

Həkimlər adından çıxış edən Fərhad Əliyev görüş iştirakçılarını 11 aprel seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevi dəstəkləməyə çağırmışdır.

Görüşdə Milli Məclisin üzvləri Nəsib Məhəməliyev və Kamilə Əliyeva çıxış edərək, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycanın əldə etdiyi sosial-iqtisadi uğurlardan, dövlətimizin inkişafından, əldə olunan uğurlu daxili və xarici siyasətdən bəhs etdilər. Çıxış edənlər bu uğurların davam etdirilməsi üçün 11 aprel seçkilərində seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

## Ucarın ilk dəfə səs verəcək gəncləri və rayonun təhsil işçilərinin seçimi İlham Əliyev Cənablarıdır!

Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı aprelin 5-də Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi partiya tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verənlər və rayon gəncləri ilə görüş keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin iştirak etdiyi və ya həyata keçirdiyi layihələr Azərbaycan dövlətinin beynəlxalq nüfuzunu daha da artırır, millətimizin mənəvi-psixoloji ruhunu və özünəinam hissini yüksəldir. Şəhla Abdullayeva qeyd edib ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.






Təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov, Yaqut Zeynalova və Rahib Rəsulov çıxış edərək, vurğulayıblar ki, Cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. Təbliğat qrupun üzvləri bu uğurların davamlı olması üçün ucarlı seçiciləri 11 apreldə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

İlk dəfə səs verənlər və rayon gəncləri adından Nuru Piriyev və Kazım Məmmədov çıxış edərək bildiriblər ki, Prezident İlham Əliyev maneələrə və təsirlərə baxmayaraq, həmişə inamla və qətiyyətlə hədəfinə doğru gedir. Bu hədəf Azərbaycan xalqının və dövlətinin milli maraqlarının ən yüksək səviyyədə qorunmasından, dəqiq müəyyənləşdirilmiş məqsədlərə və hədəflərə çatılmasından ibarətdir. Gənclər çıxış edərək, seçkilərdə İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini vurğulayıblar.

Həmin gün təbliğat-təşviqat kampaniyası çərçivəsində digər görüş rayonun təhsil işçiləri ilə keçirilib. Görüşü giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, bildirib ki, xalqımız 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə səs verməklə xoş gələcəyə və tərəqqiyə səs vermiş olacaq. “Ona görə ki, xalqımızın fəxri, böyük və qətiyyətli dövlət başçısı Cənab İlham Əliyev ölkə vətəndaşlarının ümid və qürür mənbəyidir. Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz lideridir və cəmiyyət yekdilliklə Onun siyasətini dəstəkləyir”-deyə qeyd edən partiyanın rayon təşkilatının sədri aprelin 11-də ucarlıları fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvləri - Milli Məclisin deputatı Vüsal Hüseynov və Bakı Slavyan Universitetinin professoru, “Əməkdar müəllim” Nizami Məmmədov çıxış edərək, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 15 ildə böyük inkişaf yolu keçən Azərbaycan regionun Lider dövlətinə çevrildiyini bildiriblər.

Təbliğat qrupunun üzvləri bildirdilər ki, ucarlılar ən layiqli namizəd Cənab İlham Əliyevə səs verəcəklər.

Təhsil işçiləri adından Fuad İsrafilov çıxış edərək, bildirib ki, Prezident İlham Əliyevin cəsarətli və müdrik siyasəti sayəsində bugünkü qüdrətli Azərbaycan mövcuddur. Cənab İlham Əliyev Azərbaycanı uğurlu gələcəyə aparan müdrik siyasətçidir. Qeyd olunub ki, ucarlı təhsil işçiləri 11 apreldə Cənab İlham Əliyevə səs verəcəklər.

## Xaçmazlılar Cənab İlham Əliyev siyasətinə səs verəcəklər

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahı Xaçmaz rayon şöbəsi rayonun Dədəli və Bostançı kənd seçiciləri ilə növbəti görüşlər keçirib.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və






sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan danışıb. O bildirib ki, artıq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən prezident seçkilərinə az bir müddət qalıb. O, seçiciləri Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilərdən Abdulrəhim Yaqubov, Nasib Hacıəhmədov, Zəhra İsayeva, Fəqan İbrahimov, Mehyəddin Mahmudov, Mahir Quliyev və başqaları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə misilsiz xidmətlərindən, həmçinin, Xaçmaz rayonunda görülən abadlıq-quruculuq işlərindən danışıblar. İnsanların həyat səviyyələrinin yaxşılaşdırılması istiqamətində atılan addımlara görə, Cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Vurğulayıblar ki, 11 aprel tarixində keçiriləcək seçkilərdə Cənab İlham Əliyevi dəstəkləyəcəklər.

## Nərimanov rayonunun ziyalılarının seçimi Cənab İlham Əliyevdir

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında Nərimanov rayonunun ziyalıları ilə görüş keçirilib. Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, praqmatik daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. T.Tağıyev bildirib ki, müasir dövlətimiz, məhz bu siyasət nəticəsində inkişaf edir. O, ziyalıları Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə çıxış edən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev vətəndaşların arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib və hərbi potensialımız olduqca yüksək səviyyədədir. Ə.Vəliyev bu uğurların davamı naminə hər bir seçicini 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.”

Ardı Səh. 15






# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 14

Tədbirdə çıxış edən "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib ki, ötən 15 il ərzində Prezident İlham Əliyevin reytinqi xalq arasında əhəmiyyətli dərəcədə yüksəlməkdə davam edib: "Bu sosial-siyasi göstərici ölkə rəhbərinin effektiv fəaliyyətinin nəticəsidir. Prezident İlham Əliyev Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edib, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə Azərbaycanın sabitlik adası kimi beynəlxalq müstəvidə mövqeyinin möhkəmlənməsinə nail olub." Millət vəkili vurğulayıb ki, Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlərin əldə edilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olunması və digər mühüm uğurlar, məhz Prezident İlham Əliyevin səmərəli və məqsədyönlü fəaliyyətinin nəticəsidir: "Bu kimi çoxsaylı uğurlar, əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək və xalq Cənab İlham Əliyevi yenidən Prezident seçəcək."

Tədbirdə, həmçinin, YAP Nərimanov rayon təşkilatının





gənclər birliyinin sədri Yusif Babanlı çıxış edərək, bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezidentimiz İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycan möhtəşəm nailiyyətlər əldə edib. Y.Babanlı, əmin olduğunu bildirib ki, Nərimanov rayonunun ziyalıları prezident seçkilərində yaxından iştirak edərək, ən layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə Dövlət Bədən Tərbiyə və İdman Akademiyasının kafedra müdiri Elşad Nərimanov, dosent Telman Əbiyev, Bakı Humanitar Kollecinin direktor muavini Rasim Rzaxanov, YAP Nərimanov rayon təşkilatının məsləhətçisi Nərminə Yunusova, fəal gənc İlkin Həsənov və digərləri çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

## Ağdaşlılar seçimlərinə sadiqdirlər

Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunda növbəti görüş rayonun Türyançay qəsəbəsindəki seçicilərlə keçirilib.

Görüşü Yeni Azərbaycan Partiayası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin, rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq, ölkə Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılması naminə apardığı məqsədyönlü fəaliyyəti hamının gözü qarşısında olduğunu bildirib. C.Osmanov ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyi xalqımız tərəfindən dəstəkləndiyini





vurğulayaraq, seçiciləri Onun ətrafında sıx birləşməyə çağırıb.

Seçicilərlə görüşdə çıxış edən millət vəkili Elman Nəsirov bildirib ki, son 15 ilin gerçəklikləri, əminliklə söyləməyə əsas verir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi Ona bəslənilən ümidləri doğruldub və özünü qətiyyətli və praqmatik siyasətçi kimi təsdiqləyib. E.Nəsirov 11 apreldə prezident seçkilərində Ağdaş seçicilərini ölkəmizin gələcəyinə, gələcək inkişafına, Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamına səs verməyə çağırıb.

Seçicilər adından çıxış edənlər - Tahirə Məcidova, Cavanşir İbrahimov, İlham Mehdiyev və Cəmilə Gözəlova qeyd ediblər ki, onlar seçimlərini 1993-cü ildən ediblər. Ötən illər ərzində keçirilən bütün seçkilərdə bu siyasi kursa sadiq qaldıqlarını və 11 aprel tarixində də bu seçimdə qalacaqlarını yekdilliklə bəyan ediblər. Görüş iştirakçıları öz seçimlərinə ölkədə görülən müsbət işlər, gündən-günə inkişaf edən bir ölkədə yaşadıqları möhkəm təməlli sabitliyin bərqərar olması ilə əsaslandıqlarını bildiriblər.

## Qobustanlılar alternativsiz lider Cənab İlham Əliyevə səs verəcəklər





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin üzvləri partiyanın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Cəyirli və Çalov kəndlərində seçicilərlə görüşlər keçiriblər.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin və YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev çıxış edərək, bildirib ki, Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı Cənab İlham Əliyevin beynəlxalq aləmdə və xalqımız arasında nüfuzu çox yüksəkdir və ona görə də, tam əminliklə demək olar ki, 11aprel prezident seçkilərində xalqımız özünün qətiyyətli və müdrik dövlət başçısına yenidən etimad göstərəcək. O, eyni zamanda, qeyd edib ki, Cənab İlham Əliyevin vətəndaşlar arasında nə qədər böyük hörmət və inama sahib olması həm ölkə daxilində, həm də xaricdə yaxşı məlumdur və bunun da çox ciddi əsasları var. Füzuli Gülaliyev hər kəsi 11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşlərdə rayon təbliğat-təşviqat qrupunun üzvü Zaur Cəfərov, Cahangir Ağaməmmədov çıxış edərək, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Cənab İlham Əliyevin yeni mərhələdə uğurla davam etdirdiyi inkişaf strategiyasının bu gün müstəqil Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətlərindən birinə çevirdiyindən danışıblar və məhz Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz fəaliyyəti, hesabagəlməz xidmətləri nəzərə alınaraq, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin xoşbəxt gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə hamını Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə kənd sakinlərindən Hacı Bayram Baloğlanov, Ağakərim Şirinov, Alcan Alcanov və başqaları çıxış edərək, xalqımızın belə bir qətiyyətli lideri yenidən ölkəyə rəhbər seçəcəyinə böyük əminlik ifadə ediblər.

Görüşdə kənd sakinləri çıxış edərək Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin xoşbəxt gələcəyi və müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə yalnız Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Balakən seçicilərinin seçimi Cənab İlham Əliyevdir

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsi Balakənin ictimaiyyət fəalları ilə təşviqat kampaniyası çərçivəsində növbəti görüş keçirmişdir.





Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev açaraq, 2003-2018 ci illərdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin gördüyü titanik işlərdən danışdı və seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Rayon Ağsaqqallar Şurasının sədri Rəşid Musayev çıxışında təşviqat kampaniyası çərçivəsində rayonun yaşayış məntəqələrində keçirilən tədbirlərin xülasəsini verdi.

Ardı Səh. 16

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 15

YAP fəalları Xəlifə Mirəliyev, Rəhim Tağıyev rayon seçki qərargahının üzvü kimi təşviqat qrupunun rayonun yaşayış məntəqələrində keçirdiyi görüşlərdən, 11 aprel seçki günündə rayon seçicilərinin yüksək əhvali-ruhiyyədə seçki məntəqələrinə gedəcəklərindən bəhs etdilər.

Hənifə kənd sakini Aftandil Məmmədov Cənab Prezidentin regionların sosial inkişaf strategiyasının Balakəndə uğurla həyata keçirildiyindən danışdı.

Rayon təhsil işçiləri adından çıxış edən gənc müəllimə Vəfa Emçiyeva 2003-2018-ci illərdə Prezidentin təhsilə olan qayğısından, yeni-yeni məktəb binalarının tikintisindən, müəllimlərin əmək haqlarının artırılmasından və 11 apreldə rayon müəllimlərinin mütəşəkkil surətdə seçki məntəqələrinə gedəcəklərindən danışdı.

Tədbirdə çıxış edən Milli Məclisin üzvü Nəsib Məhəməliyev Cənab İlham Əliyevin xalq və dövlət üçün gördüyü əvəzsiz xidmətlərindən danışdı. Seçiciləri 11 aprel seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

## Zaqatalalılar uğurlu sabahımıza "İlhamla İrəli" deyir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Yuxarı Tala və Aşağı Tala seçiciləri ilə görüş keçirib. Görüşdə 500 nəfər seçici iştirak edib.







Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü şəkildə dövlət siyasətinin həyata keçirildiyini, dövrün tələblərinə uyğun sistemli islahatların aparıldığını diqqətə çatdırıb. Rayon təşkilatı sədri vurğulayıb ki, ictimai-siyasi və sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyin, sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib. Rayon təşkilatının sədri "İlhamlı sabahımıza, "İLHAMLA İRƏLİ!", - deyərək bütün zaqatalalıları uğurlu gələcəyimizin qarantı - İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisin deputatları Kamilə Əliyeva və Elşən Musayev çıxış edərək, 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının tətbiqi ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən rayon təbliğat qrupunun üzvləri Əsgər Məmmədov, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva, Namidə Süleymanovavə başqaları ölkəmizin gündən-günə inkişaf etdiyini, insanların rifah halının yüksəldiyini bildirərək, bu işlərin davamlı olmasını vurğulayıblar. Çıxış edənlər rayon seçicilərini 11 apreldə Ulu Öndər Heydər Əliyev siyasətininlayiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Qubalılar "İLHAMLA İRƏLİ" deyir

Dünən YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun səhiyyə işçiləri ilə görüş keçirilib.

Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov





çıxış edərək, bildirib ki, ölkə Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, xalqımızın ali mənafeyini ifadə edən Liderdir: "Bu gün Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev xalqımızın alternativsiz seçimidir. Azərbaycan ictimaiyyəti, o cümlədən, Quba seçiciləri Prezident İlham Əliyevi, birmənalı şəkildə dəstəkləyir". Rayon təşkilatı sədri, Azərbaycanda ötən 15 il ərzində, iqtisadi irəliləyişin, dövlətin iqtisadi potensialının artmasının səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunmasına səbəb olduğunu da bildirib. Bütün sahələrə olduğu kimi, səhiyyəyə də hər il böyük həcmdə investisiyalar yatırılmaqdadır. Y.Abidov qeyd edib ki, məhz bu nailiyyətlərimizə görə də, hamımız bir nəfər kimi, uğurların davamlı olması üçün 11 apreldə seçki məntəqələrinə gələrək, Azərbaycanın, dövlətin və xalqın qarantı olan Cənab İlham Əliyevə səs verəcəyik.

Rayon şöbəsinin təbliğat qrupunun üzvləri Həsən Günəşli, Elza Orucova, Əliyar Sərvərov, Habil Bayramlı, Hüseyn Kərimov, YAP fəalı Əliyar Sərvərov çıxış edərək, Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın nüfuzlu ölkələrindən birinə çevrildiyini vurğulayıblar. Qeyd olunub ki, bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində islahatların davam etdirilməsi, ölkə əhalisinin keyfiyyətli və əlverişli şərtlərlə tibbi xidmətlə təmin olunması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin əsasını təşkil edir. Çıxışlarda vurğulanıb ki, ölkəmizdə həyata keçirilən siyasətin nəticələrini hər vətəndaş, o cümlədən, Quba sakinləri həyatlarında hiss edir və aprelin 11-də seçicilər hamılıqla Cənab İlham Əliyevə səs verəcəklər.

Seçicilər də prezident seçkilərində fəal iştirak edəcəklərini və partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Mədəniyyət işçiləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin seçki qərargahının üzvləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon mədə-






niyyət və incəsənət xadimləri ilə görüş keçiriblər. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri Şəmsəddin Hacıyev çıxış edərək, Cənab İlham Əliyevin 2003-2018-ci illərdə ölkəyə başçılıq etdiyi müddətdə Azərbaycanın bütün sahələr üzrə sürətli inkişaf yolu keçdiyini, vətənimizin dünyada sayılıb-seçilən ölkələrlə bir sırada qərarlaşmasını qeyd edib. Ş.Hacıyev bildirib ki, ölkənin iqtisadi, mədəni və sosial sahələrində aparılan islahatlar Azərbaycan xalqının daha firavan yaşamasına səbəb olub: "Ona görə də, sizlərin hər birinizi Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına - Cənab İlham Əliyevə səs verməyə çağırıram. Bizlərin bir şüarı var: "İlhamla irəli!" və bu şüarla növbəti qələbələrə və zəfərlərə doğru da birgə addımlayaq".

Görüşdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, xalq artistləri Hacı İsmayılov, Arif Quliyev və başqaları çıxış edərək, Azərbaycanda olan yüksək inkişafdan, mədəniyyət sahəsinə göstərilən qayğı və diqqətdən danışıblar. Çıxış edənlər Səbail seçicilərini uğurlu gələcəyimizin qarantı - Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Seçicilər də çıxışlarında 11 apreldə keçiriləcək prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Tədbirdə YAP Səbail "Akademik Filarmoniya" ərazi ilk partiya təşkilatının yeni üzvlərinə partiya vəsiqələri təqdim olunub.

## Oğuzlu qadınların seçimi Cənab İlham Əliyevdir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsi 11 aprel seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam etdirir. YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi növbəti görüşü qadın seçiciləri ilə keçirib.

YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Saleh Məhərrəmov görüşdə çıxış edərək vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə Azərbaycan hərtərəfli və sürətli inkişaf tempi əldə edib. Ölkə daxilində bütün sahələr üzrə əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edəcək uğurlu siyasət reallaşdırılıb.

YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon təbliğat-təşviqat qrupunun üzvləri İradə Məmmədova, Cuma Cumayev çıxış edərək, vurğulayıblar ki, prezident seçkiləri sabitlik şəraitində gedir və qazanılan bütün uğurlar xalqın alternativsiz namizədi olan Cənab İlham Əliyevin növbəti möhtəşəm və parlaq qələbəsini təmin edəcək mühüm faktorlardan biri olacaq.

Ardı Səh. 17




# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 16

Görüşdə çıxış edən YAP Oğuz rayon təşkilatının qadınlar şurasının sədri Mariya Həsrətova Cənab İlham Əliyevin siyasi fəaliyyətindən ətraflı bəhs edib. Oğuz qadınları adından çıxış edən İlhamə Abdullayeva, Arizə Xudiyeva, Təranə





Zəkəriyyəyeva və Mehriban Abbasova qadınların Azərbaycan dövlətçiliyinin güclənməsində, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında rolundan danışıb və əminliklə bildiriblər ki, Oğuz seçiciləri yekdilliklə 11 aprel seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə çıxış edən Milli Məclisin komitə sədri Aqiyə Naxçıvanlı qarşıdakı 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə bütün Oğuz seçicilərini "İlhamla irəli" səsləyərək, 11 aprel prezident seçkilərində YAP namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Şamaxı seçiciləri inkişaf naminə Cənab İlham Əliyevə yenidən etimad göstərəcəklər

Şamaxı rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir.





Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Dədəgünəş və Çağan kəndlərində seçicilərlə keçirilən görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsinin üzvləri Ağarza Bayramov, Fatma Quliyeva, Hacıbaba Şıxıyev, Eyvaz Eminaliyev, Nəzakət Abdulrazaqova çıxış ediblər və Prezident İlham Əliyevin rəhbərliyi və uğurlu siyasəti sayəsində əldə olunan nailiyyətlərdən, 15 il ərzində Azərbaycana bəxş etdiyi töhfələrdən söz açaraq, bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Görüşlərdə çıxış edən rayon təbliğat qrupunun üzvü Eyvaz Eminaliyev bu uğurlu siyasətin, nailiyyətlərin, məqsədyönlü işlərin davamlı olması naminə xalqımızın yenidən Cənab İlham Əliyevə etimad göstərəcəyinə əminliyini ifadə edərək, bildirib ki, biz gələcək illərdə Azərbaycanın yüksək səviyyədə inkişaf etmiş ölkələr sırasında olması naminə Cənab İlham Əliyevə yenidən etimad göstərməliyik.

Tədbirlərdə çıxış edənlər 11 apreldə keçiriləcək prezident seçkilərində bütün seçiciləri hamılıqla Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Qəbələ seçiciləri ən doğru seçim olaraq Cənab İlham Əliyevə səs verəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Qəbələ rayonunda uğurla davam etdirilir. Növbəti görüş rayonun





Mıxlıqovaq kəndində keçirilib. Tədbirdə qonşu Kötüklü və Solquca kəndlərinin seçiciləri də fəal iştirak edib.

Mıxlıqovaq kəndində seçicilərlə keçirilən növbəti görüşdə Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədr müavini, YAP Mərkəzi Seçki Qərargahı Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Elçin Tağıyev tədbiri açıq elan edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, infrastruktur layihələrinin əhəmiyyətindən, son 15 il ərzində ölkəmizin simasının bütünlüklə dəyişməsindən, insanların həyatının yaxşılaşmasından və Azərbaycanın qarşıdakı illərdə daha güclü, daha modern və inkişaf etmiş ölkəyə çevirəcəyindən, gələcəyə yeni imkanlar açacağından danışıb.

Elçin Tağıyev əminliklə bildirib ki, qazanılan bütün uğurları düzgün qiymətləndirərək, 11 aprel 2018-ci il prezident seçkilərində xalqın yalnız bir seçimi olacaq və bu seçim də Cənab İlham Əliyevdir.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Telman Abduxalıqov son 15 ildə ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdən danışıb. O, seçiciləri qarşıdan gələn prezident seçkilərində yekdilliklə iştirak etməyə, son illərdə ölkəmizi tərəqqiyə, xalqımızı firavanlığa aparan liderə - Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin, kənd sakinlərindən Maarif İsmayılov, İlham Şirinov, İslam Abdurahmanzadə, Tamara Mikayılova, İqbal Xəlilli, Qəmbər Qəmbərov, Əfqan Abdurahmanov, Tahir Ağakişiyev, Səbuhi Nəbiyev, Vaqif Səmədov və digərləri çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin bütün sahələrdə əldə etdiyi uğurlar haqqında geniş məlumat veriblər və bildiriblər ki, xalqımızın mütləq əksəriyyəti aprelin 11-də keçiriləcək prezident seçkilərində ən doğru seçim edərək, Cənab İlham Əliyevə səs verəcəklər!

## Biləsuvar seçiciləri "İlhamla irəli" deyir

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş Biləsuvar rayonu İsmətli, Çaylı və Əliabad kəndlərinin seçiciləri ilə keçirildi.





Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Əjdər Niftiyev qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat verdi. Əjdər Niftiyev prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə seçiciləri tanış etdi. Natiq qeyd etdi ki, 2003-2018-ci illər ərzində Cənab İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü titanik işlər Azərbaycanın inkişafına çox böyük təkan vermişdir: "Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti Azərbaycanın xoş gələcəyinə təminat verir. Əminəm ki, Biləsuvar rayonunun çoxsaylı İsmətli, Çaylı və Əliabad kəndlərinin seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər".

Tədbirdə YAP Mərkəzi Seçki Qərargahı Biləsuvar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Akif Kazımov çıxış edərək, bildirdi ki, 2003-cü ildən keçən müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar, Azərbaycanın dünyada multikultural və tolerant mərkəzə çevrilməsi, beynəlxalq neft və qaz layihələrinin həyata keçirilməsində möhtəşəm rolu barədə seçicilərə ətraflı məlumat verdi. Natiq bütün İsmətli, Çaylı və Əliabad kəndlərinin seçicilərini 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə YAP Biləsuvar rayon təşkilatı təbliğat-təşviqat qrupunun üzvü Rüstəm Əliyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təhsil, mədəniyyət və səhiyyə sahələri üzrə dövlət proqramlarının uğurla həyata keçirilməsindən söhbət açdı. Natiq bildirdi ki, əgər Azərbaycan dövlətinin və xalqının dinamik inkişafını və tərəqqisini istəyiriksə, Cənab İlham Əliyevə səs verməliyik.

Görüşdə seçicilərdən Fəday Əliyev, Rəşad Əliyev, Allahşükür Abdullayev və başqaları çıxış edərək, 11 aprel tarixində keçiriləcək seçkilərdə hamılıqla Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

Ardı Səh. 18

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 17

## Suraxanı rayonunda qadın seçicilərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində qadın seçicilərlə görüş keçirib.





Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsinin sədri Vüqar Seyidov Cənab İlham Əliyev siyasətinin xalq tərəfindən qətiyyətlə dəstəkləndiyini bildirərək, dövlət başçısının prezident olduğu son 15 ildə əldə olunan böyük uğurlardan və bu uğurların hər bir ölkə vətəndaşının öz həyatlarında hiss etdiklərini qeyd edib. Rayon təşkilatı sədri bildirib ki, seçicilər Cənab İlham Əliyevə səs verməklə, Azərbaycanın inkişafının davamlı olmasına, Ulu Öndər Heydər Əliyev yolunun davam etdirilməsinə səs vermiş olacaqlar.

Görüşdə YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva çıxışında dünyada böhranın müşahidə edildiyi müasir dövrdə Cənab İlham Əliyevin əsl Liderlik xüsusiyyətlərini öz şəxsində qoruyan, bu xüsusiyyətləri xalqımıza xas yüksək mənəvi-əxlaqi normalarla uzlaşdıran və bütün dünyada nümunə yaradan, çox az sayda tanınan parlaq siyasət adamlarından olduğunu, öz liderlik keyfiyyətləri ilə XXI əsrin siyasi Liderinin mükəmməl portretini yaratdığını vurğulayıb. N.Əliyeva seçiciləri 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində hər zaman inanıb güvəndiyi Liderinə - Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva Cənab İlham Əliyevin ötən 15 il ərzində Prezidentliyi dövründə Azərbaycanın hər bir sahədə-istər siyasi, istər iqtisadi, istərsə də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazandığını, aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində, ölkəmizin iqtisadi inkişaf sürətinə görə, dünyanın lider dövlətləri sırasında yer aldığını vurğulayıb. Bu gün Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəldiyini, qlobal fəaliyyətin hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Tədbirdə çıxış edən YAP Suraxanı rayon qadınlar şurasının sədri Zəkiyyə Musayeva bu gün Azərbaycan qadınının Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətdə xalqın parlaq gələcəyini, insanların stabil bir cəmiyyətdə güvənli, təhlükəsiz yaşam tərzini qurduğunu vurğulayaraq, hər bir kəsi 11 aprel tarixində ən layiqli namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Çıxış edən seçicilər - Sevda Hacıyeva, milli qəhrəman Cavanşir Rəhimovun anası Lalə Rəhimova, Arzu Cəfərzadə, Sevinc İsmayılova və Almaz Əhmədova hər kəsi yeni qələbələr və güclü Azərbaycan naminə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Göyçay seçiciləri seçkilərə "İlhamla irəli" şüarı ilə gedirlər

Apr elin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunda da uğurla davam edir. Seçicilərlə görüş çərçivəsində aparılan kampaniya bu dəfə rayonun Bəydövül kənd sakinləri ilə keçirilib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov Cənab İlham Əliyevin ölkə rəhbəri olduğu 15 ilə yaxın müddət ərzində ölkəmizdə gedən uğurlu inkişaf barədə ətraflı danışıb.

S.Şükürov Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu müddətdə ölkəmizin iqtisadi inkişafı, çox böyük əhəmiyyət kəsb edən iri layihələrin həyata keçirilməsi, demokratik dəyərlərə söykənən dövlətin yaradıl-





ması və inkişaf etdirilməsi, əhalinin yaşayış səviyyəsinin ilbəil yaxşılaşması, bütün bölgələrin sosial-iqtisadi inkişafının təmin olunmasına xüsusi önəm verilməsi məsələlərini konkret faktlarla seçicilərin diqqətinə çatdırıb. Natiq bütün seçiciləri aprelin 11-də Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edənlər - Zemfira Əliyeva, Ləman Hacıyeva, Rövşən Zamanov, Ağayar Mikayılov və başqaları ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Prezident İlham Əliyevin daima xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışıblar. Natiqlər dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən Göyçay rayon seçicilərinin 11 apreldə seçkilərə gəlməyə, inamlı sabahımıza səs verməyə çağırıblar.

## Laçınlılar İlham Əliyevə səs verəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Laçın rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində Ağcabədi rayon Taxta-körpü qəsəbəsində laçınlı seçicilərlə növbəti görüş keçirilib.

Görüşdə çıxış edən YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov qüdrətlənən Azərbaycanın daha bir əhəmiyyətli hadisə ərəfəsində olduğunu bildirib. İlqar İlyasov bir neçə gündən sonra xalqımızın növbəti dəfə prezident seçkilərində iştirak edəcəyini bildirərək, ölkədə mövcud olan xalq və iqtidar birliyinin hökm sürdüyünü diqqətə çatdırıb: "Məhz bu sarsılmaz birliyin nəticəsidir ki, ölkəmiz son 15 ildə sürətlə inkişaf etmiş, xalqımızın sosial-rifah halı daha da yaxşılaşdırılmışdır.Son 15 ildə Azərbaycan daha möhtəşəm uğurlara imza atmışdır. "İlhamla irəli" şuarını seçməkdə məqsəd mövcud siyasətin davamı ilə daha möhtəşəm qələbələri hədəf kimi göstərməkdir. Azərbaycan vətəndaşları bu inkişafı gündəlik həyatlarında hiss edirlər. Mütəmadi olaraq bölgələrə səfər edən dövlətimizin başçısı İlham Əliyev ictimaiyyət nümayəndələri ilə görüşündə onları maraqlandıran məsələlərlə yaxından tanış olur, həlli ilə bağlı aidiyyəti qurumlara tapşırıqların verir. Cənab İlham Əliyev hər kəsin Prezidenti olduğunu uğurlu addımları ilə təsdiqləyir. Azərbaycan vətəndaşları irəli sürülən bütün təşəbbüsləri dəstəkləyir, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə həyata keçirilən siyasətə inam və etimadlarını nümayiş etdirirlər. Bu gün ölkəmizdə mövcud olan sabitlik, güclü iqtisadiyyat gələcək inkişafın əsasını təşkil edir". İ.İlyasov bu uğurların davamlı olması





üçün laçınlı seçiciləri partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən MM-in deputatlarından Tahir Rzayev, Mahir Abbaszadə 11 aprel 2018-ci ildə keçiriləcək Prezident seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin siyasi fəaliyyətinə diqqət yönəldiblər. Qeyd olunub ki, cənab İlham Əliyev təkcə Yeni Azərbaycan Partiyasının yox, bütövlükdə xalqın namizədidir.

Görüşdə çıxış edən rayon ziyalıları və ağsaqqalları Murad Hüseynov, Tahir Bayramov, Abuzər Abuzərov, Vüsal Həsənov, Solmaz Məhərrəmova, Osman Həsənov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılmış böyük uğurlardan, həyata keçirilən sosial layihələrdən, respublikamızda və rayonda görülən abadlıq işlərindən danışaraq, 11 apreldə keçiriləcək seçkilərdə bütün laçınlıları hamılıqla YAP-ın namizədi cənab İlham Əliyevə səs verməyə çağırdılar. Seçicilər çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin ölkəmizə böyük uğurlar və nailiyyətlər gətirdiyinə görə, xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini bildirərək, bu siyasətin növbəti 7 ildə də davam etməsi üçün cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Rəhbər seçək

Açıq qəlblə, saf ürəklə dur gedək,
Gələcəyə, parlaq günə səs verək.
Hamılıqla dərin-dərin düşünək,
Rəhbər seçək, o rəhbərə səs verək.

Polad iradəli, qələm-qüdrətli,
Bilikli, savadlı, sözü qiymətli,
Vəfalı, xeyirxah, milli qeyrətli,
Rəhbər seçək, o rəhbərə səs verək.

Vətənimi, torpağımı saxlayan,
Düşməninin sinəsini dağlayan,
Taleyini tərəqqiyə bağlayan,
Rəhbər seçək, o rəhbərə səs verək.

Xalqa yol göstərən, Babək hünərli,
Dərin düşüncəli, sözü kəsərli,
Şərəfli, şöhrətli, yolu zəfərli,
Rəhbər seçək, o rəhbərə səs verək.

Olsun prezidentim, olsun dayağım,
Olsun xilaskarım, olsun yarağım.
Olsun işıq yolum, olsun çırağım,
Rəhbər seçək, o rəhbərə səs verək.

Rəhbərə yaşasın, var olsun deyək,
Səbirli xalqımı vəfalı görək.
Ədalət naminə gedək səs verək,
İlham Əliyevi prezident seçək!

***Abbasəli Uluxanlı,***
***təqaüdçü, 85 yaşında***

# Xalq İlham Əliyevə "HƏ" deyir!






## Çilov adasının sakinləri Cənab İlham Əliyevə "HƏ" deyir!

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Belə ki, YAP Mərkəzi Seçki Qərargahı Pirallahı rayon şöbəsi namizədliyi partiya tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Çilov adasının seçiciləri mitinq-görüş keçirib.***

Qonaqlar, ilk öncə, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılmış büstü önünə gül-çiçək dəstələri düzüblər.

Sonra milli qəhrəman Ramiz İbrahimovun və digər şəhidlərin xatirəsinə ucaldılmış abidə ziyarət olundu, qarşısına gül-çiçək dəstələri düzüldü.

Mitinq-görüşü sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri, YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov ölkə Prezidenti, xalqımızın ən etibarlı və alternativsiz lideri Cənab İlham Əliyevin uğurlu siyasətinin növbəti 7 ildə də davam etdirilməsi ilə ölkəmizin qüdrətinin bundan sonra da artacağına əminliyini ifadə edib. H.Şikarov prezident seçkilərinin ölkəmizin inkişaf tarixində vacib rolu və əhəmiyyəti barədə məlumat verərək, bildirib ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, zəngin demokratik seçki ənənələrinə malikdir. Aprelin 11-də prezident seçkilərinin də demokratik standartlara uyğun, azad və şəffaf keçiriləcəyini, xalqımızın iradəsini dolğun əks etdirəcəyini bildirən YAP Pirallahı rayon təşkilatının sədri daha sonra YAP-ın namizədi Cənab İlham Əliyevin xalqımız və dövlətimiz qarşısında əzəmətli xidmətləri haqqında da danışıb. O, eyni zamanda, bu müddət ərzində əhalinin sosial müdafiəsinin güclənməsinə xidmət edən mühüm layihələrin reallaşdırılması, paytaxtda və regionlarda iqtisadi ehtiyatların səfərbər edilməsi, yeni müəssisələrin və iş yerlərinin yaradılması, insanların layiqli yaşayışının təmin edilməsi üçün ardıcıl görülən işlərdən bəhs edib. H.Şikarov sonda bütün seçiciləri aprelin 11-də fəal olmağa və mütəşəkkilliklə seçki məntəqələrinə gedərək, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.



Çıxış edən YAP Pirallahı rayon təşkilatı idarə heyətinin üzvü, "28 May" Neft-Qaz Çıxartma İdarəsinin rəisi Zaur Bağırov prezident seçkilərinin Azərbaycanın inkişafında böyük əhəmiyyəti ilə bağlı danışaraq, Azərbaycan dövləti və xalqının, o cümlədən, Yeni Azərbaycan Partiyasının qarşıdan gələn prezident seçkilərinə böyük uğurlarla getdiyini bildirib, Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycanın bütün sahələrində misilsiz nailiyyətlər qazanılmasından danışıb, eləcə də, Çilov adası seçicilərini partiyanın alternativsiz namizədi İlham Əliyev Cənablarına səs verməyə çağırıb.



Sonra çıxış edən Azərbaycan Milli Məclisinin Səhiyyə Komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü, tibb elmləri namizədi Musa Quliyev söyləyib ki, Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı, gələcəyi üçün uğurlu siyasət həyata keçirir. 11 aprel seçkilərində də Azərbaycan xalqı seçimini müəyyənləşdirəcək və xalq öz alternativsiz lideri olan İlham Əliyevi yenidən Prezident seçəcək.

Tədbirdə Milli Məclisinin deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru Tahir Mirkişili çıxış edərək, bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev əhalinin bütün təbəqələrinin arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib.

Seçicilər qarşısında çıxış edən milli qəhrəmanlarımız Bəxtiyar Allahverdiyev və Vahid Quliyev Cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 15 il ərzində əldə edilən uğurlardan, Azərbaycanda ictimai-siyasi sabitliyin təmin edilməsindən, ölkəmizin milli maraqlarını qoruya bilməsindən, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin, xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyubsaxlaya bilməsindən danışıblar və seçiciləri fəal olmağa, seçki günü İlham Əliyev Cənablarına səs verməyə dəvət ediblər.

Daha sonra tədbir tanınmış incəsənət xadimlərinin ifasında birbirindən maraqlı konsert proqramları ilə davam etdirilib.






## Zirvə görüşü - şəkililər, birmənalı olaraq, Cənab İlham Əliyevə səs verəcəklər!

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə ümumrayon tədbiri keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü nəhəng işlərdən danışıb. Natiq bildirib ki, Prezident İlham Əliyevin müdrik və məqsədyönlü siyasəti nəticəsində son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Şəki seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.



Tədbirdə YAP Siyasi Şurasının üzvü, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, YAP Siyasi Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, millət vəkili Azər Kərimli, Azərbaycan Pedaqoji Universitetin tələbəsi Nuranə Abdulkərimova çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib və seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

# Cənab İlham Əliyevə xalqın sevgisi tükənməzdir, bu amil 11 aprel seçkilərində bir daha təsdiq olunacaq

## *YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yap.org.az-a müsahibəsi*

***- Eldar müəllim, ölkəmiz prezident seçkiləri ərəfəsindədir. Hazırda seçki kampaniyasının təbliğat-təşviqat kampaniyası həyata keçirilir. Bu kampaniya zamanı Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin xalqımız tərəfindən dəstəklənməsinin bir daha şahidi oluruq...***



- Bilirsiniz ki, fevral ayında Yeni Azərbaycan Partiyasının VI Qurultayı keçirildi. Qurultayda partiyamızın Sədri, dövlət başçısı İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürüldü. Qurultayın qərarı tarixi bir qərardır. Bu qərarı partiyamızın yüzminlərlə üzvü alqışlayır. YAP-ın VI Qurultayında cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi bütün xalqımızın arzu və istəyi idi. Çünki cənab İlham Əliyev dövlət başçısı olaraq "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" vədinə sadiq qalıb, Onun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bütün sferalarda böyük inkişaf yolu keçib.

Azərbaycanda partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevə rəqib ola biləcək siyasi qüvvə yoxdur. Çünki Prezident İlham Əliyev bütün fəaliyyətində Heydər Əliyev ideyalarına sadiqdir və Ümummilli liderimizin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam etdirir, Onun fəaliyyətinin başlıca amalı dövlətə və xalqa xidmət etməkdir. Prezident İlham Əliyev hər zaman vədinə əməl edən liderdir. Dövlət başçısı ilə vətəndaşlar arasında qarşılıqlı inam və etimad var. Bütün bunların nəticəsidir ki, ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür.

***- Son 15 ildə Azərbaycan bütün sahələr üzrə inkişaf edib. Partiyamız prezident seçkilərinə hansı uğurlarla gedir?***

- Şübhəsiz ki, 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hər bir sahədə böyük uğurlar qazanıb. Ötən 15 il ərzində Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasındadır.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanın artan iqtisadi imkanları iqtisadiyyatın bütün sahələrinin paralel inkişafına yönəlib, Azərbaycanda insan kapitalının inkişafına böyük investisiyalar qoyulub. Ölkəmizin hər bir guşəsində böyük fabriklər, zavodlar, səhiyyə müəssisələri, idman və sağlamlıq kompleksləri, müxtəlif müəssisələr istifadəyə verilib. Son illər dünyada təlatümlərin, iqtisadi böhranın davam etməsinə baxmayaraq, Azərbaycanda inkişaf tendensiyası davam edir. Ötən 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb, 1,9 milyon yeni iş yeri açılıb. Bu dövrdə 3 mindən çox məktəb, 600-dən artıq tibb müəssisəsi tikilib istifadəyə verilib və ya yenidən qurulub. Uşaq və gənclərin sağlam həyat sürməsi, ölkəmizdə güclü idmançı nəslinin yetişməsi üçün 43 Olimpiya İdman Kompleksi inşa olunub. 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin bir hissəsidir.

Son 15 ildə Azərbaycanın təşəbbüsü və dəstəyi ilə böyük, transmilli iqtisadi, enerji və nəqliyyat layihələri bütün dünya üçün böyük əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töfhələr verir. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu, TAP, TANAP layihələri, Şimal-Cənub nəqliyyat dəhlizi layihələri bütövlükdə dünya üçün əhəmiyyətlidir. Bu faktor Azərbaycana iqtisadi dividendlər gətirməklə yanaşı, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu da əhəmiyyətli dərəcədə artırır. Azərbaycan 2011-ci ildə 155 dövlətin dəstəyi ilə iki il müddətinə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və bu dövrdə dünyada sülh və təhlükəsizliyin təmin olunmasına, insan haqlarının müdafiəsinə mühüm töhfələr verib. Eləcə də Azərbaycan kosmos dövlətləri sırasında özünün layiqli yerini turur.

Həmçinin Azərbaycan dünyada etibarlı tərəfdaş kimi özünü təsdiq edib, ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib. Ölkəmizdə "Eurovision", birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula - 1 yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəniyyət və idman tədbirləri keçirilib. Təbii ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir.

Onu da qeyd etmək istəyirəm ki, ötən 15 ildə ölkəmiz müdafiə qabiliyyətini də xeyli gücləndirib. Bu gün Azərbaycan Ordusu ən güclü ordular sırasındadır. Ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Bunu 2016-cı ilin aprel döyüşləri bir daha təsdiqlədi.

Bu mənada, düşünürəm ki, biz qarşıdan gələn prezident seçkilərinə böyük nailiyyətlərlə gedirik. Hesab edirəm ki, bu nailiyyətlər partiyamızın namizədinin növbəti parlaq qələbəsini şərtləndirən əsas amildir.

***- Bu dövrdə əldə olunan sosial-iqtisadi göstəricilər nədən ibarətdir?***

- Qeyd etdiyimiz dövr Azərbaycanın sosial-iqtisadi inkişaf baxımından yüksəliş dövrü kimi tariximizə yazılıb. Bu dövrdə müstəqil dövlətimiz çox böyük nailiyyətlər qazanıb. Faktlara diqqət yetirək. Belə ki, ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub, valyuta ehtiyatları isə 23 dəfə artaraq 42 milyard dollara çatıb. Maaşlar 5, pensiyalar 8 dəfə artıb. İşsizlik 5 faiz təşkil edir, yoxsulluq 50 faizdən 5,4 faizə enib.

İqtisadiyyat ümumulikdə 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracında isə 4,1 dəfə artım var. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilib. Ölkəmizin yaşayış məntəqələrinin qazlaşdırılması 51 faizdən 93 faizə çatdırılıb.

Ölkəmizdə gücü 2500 meqavat olan 30 elektrik stansiyası tikilib və hazırda mövcud stansiyaların generasiya gücü 6400 meqavatdır(3900+2500) və 15 il ərzində 64 faiz artıb.

Həmçinin, Oğuz-Qəbələ-Bakı su xətti çəkilib. Ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faizdən 67 faizə çatdırılb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir.

Bu dövrdə dörd su anbarı - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib istifadəyə verilib. Eləcə də, 12 min 300 kilometr yol çəkilib, 443 körpü tikilib. 15 il ərzində respublikada 7 aeroport tikilib və ya yenidən qurulub. Yalnız Bakı aeroportu beynəlxalq aeroport idi, hazırda altı beynəlxalq aeroport var - Bakı, Naxçıvan, Gəncə, Ləmkəran, Qəbələ, Zaqatala. Yevlax aeroportu isə yerli əhəmiyyətlidir.

***- Eldar müəllim, Azərbaycan hökuməti kənd təsərrüfatının inkişafına da güclü dəstək göstərir. Dövlətin dəstəyi hansı nəticələr verməkdədir?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezidentliyinin ilk illərindən başlayaraq kənd təsərrüfatının inkişafına yüksək diqqət və qayğı ilə yanaşmış, bu sahənin tərəqqisi üçün dövlət dəstəyinin vacibliyini yüksək qiymətləndirib. Hörmətli Prezidentimiz 2004-cü ildən başlayaraq ölkəmizdə kənd təsərrüfatının və onunla bağlı aqrar-sənaye kompleksinin digər sahələrinin müasir tələblər səviyyəsində birgə inkişafının təmin edilməsi üçün elmi əsaslara söykənən ardıcıl siyasət yeridir.

Ölkəmizdə aqrar sahənin inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsul istehsalına çəkilən xərcin bir hissəsinin dövlət vəsaiti hesabına ödənilməsi, məhsul istehsalının dinamik artımına nail olunması üçün indiyə kimi möhtərəm Prezidentimiz tərəfindən onlarla qanun, fərman və sərəncam imzalanıb. Kənd təsərrüfatı məhsul istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olunması haqqında 2001-ci ildən tətbiq edilən qanunun qüvvəsinin Prezident İlham Əliyevin təşəbbüsü ilə 2018-ci ilin sonuna kimi uzadılması fermerlərə 2 milyard manatdan çox dövlət büdcəsinə ödəniləcək vəsaitin onların sərəncamında qalmasına və istehsalın genişləndirilməsinə sərf etməyə imkan verib.

Kənd təsərrüfatında əldə olunan nəticələri 2017-ci ilin timsalında da görmək mümkündür. Belə ki, 2017-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 6 milyard 580 milyon manat (4 milyard dollar), bu sahədə yaradılan ümumi daxili məhsul 3,9 milyard manat (2,3 milyard dollar), ümumi daxili məhsulda kənd təsərrüfatının payı 5,6 faiz təşkil edib. 2007-2016-cı illərdə yalnız yanacaq və motor yağlarına, buğda və çəltik əkinlərinə, mineral gübrələrə və reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən hər il 150-180 milyon manat həcmində subsidiya verilib. 2018-ci ildə büdcədən kənd təsərrüfatına 656 milyon manat vəsait ayrılıb ki, bunun da 288 milyon manatı müxtəlif subsidiyaların ödənilməsi və aqrar sahədə islahatların aparılmasına yönəldiləcək.

Sumqayıt sənaye parkında isə sənaye məhsulları ilə yanaşı kənd təsərrüfatı istehsalı üçün böyük əhəmiyyət kəsb edən bir neçə zavod da tikilib istifadəyə veriləcək. Tikintisinə başlanılan SOCAR karbamid zavodunda ildə 650- 660 min ton azot gübrəsi istehsal ediləcək. Parkda təməli qoyulan Sumqayıt yunəyirici-boyaq fabrikində ildə 370 ton yun iplik və 195 ton təmiz yun istehsal ediləcəkdir.

Fermerlərin öz məhsullarını satmaqda üzləşdikləri çətinlikləri aradan qaldırmaq və bu işi asanlaşdırmaq, habelə əhalini sağlam ərzaq məhsulları ilə təmin etmək üçün 2016-cı ildə Kənd Təsərrüfatı Nazirliyinin tərkibində "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC və ötən il Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılması barədə Prezident Sərəncam və Fərman imzalayıb və onlar fəaliyyətə başlayıblar.

Ölkəmizdə qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, ənənəvi sənaye sahələrinin bərpası və inkişafına da böyük diqqət yetirilir. Xüsusilə son vaxtlar milli sərvətimiz və xaricə çıxışı olan xalçaçılığın inkişafına diqqət artırılıb. Bu məqsədlə "Azərxalça" ASC-nin yaradılması, bölgələrdə 10 -na yaxın xalçaçılıq fabrikinin, Sumqayıtda əyirici-boya fabrikinin tikintisi aparılır ki, bu da yaxın vaxtlarda xalça istehsalında həm boya və həm də iplikdən xarici asılılığa son qoyacaq və xalça məhsulları ilə xarici bazarlara çıxmaq üçün böyük imkan yaradacaq.

## Azərbaycan ilə İran arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



***Azərbaycan Respublikasının müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev Moskvada keçirilən VII Beynəlxalq Təhlükəsizlik Konfransı çərçivəsində İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Əmir Hatəminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ikitərəfli hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə edilib.






# İlham Əliyev rəhbərinə və dövlətinə güvənən xalqın səsidir

## *Milli Məclisin deputatı Rəşad Mahmudovun yap.org.az-a müsahibəsi*

***- Rəşad müəllim, Azərbaycan xalqı aprelin 11-də keçiriləcək prezident seçkilərinə yüksək əhval-ruhiyyə ilə gedir. Düşüncələriniz nədən ibarətdir?***

- İyirminci yüzilliyin 69-cu ilindən bəri dövlətimizin bütün parlaq xatirələrinə,siyasi-tarixi fədakarlıq səhifələrinə, ən işıqlı, barlı-bəhrəliideya və düşüncələrinə görə Azərbaycan xalqı məhz Ulu öndərimiz Heydər Əliyev epoxasına borcludur. O, müstəqil Azərbaycan dövlətinin təməlini ölkəyə rəhbərləyinin məhz ilk dövründə qoymuşdu. Bircə faktı qeyd edim: hələ sovet dönəmində respublikada milli hərbi kadrların hazırlığı məqsədilə hərbi məktəblərin açılması, ölkəmizə vacib olan sahələr üzrə peşəkar mütəxəssislərin hazırlanması üçün keçmiş İttifaqın ali məktəblərinə gənclərin göndərilməsi, Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması... məhz Ulu öndərimizin o dövrdəki müdrik siyasəti və rəhbərliyi dövründə mümkün oldu. Bu gün böyük iftixar hissiylə bunu yada salırıq və mən hesab edirəm ki, indiki müasir, güclü, müstəqil Azərbaycan, onun beynəlxalq nüfuz qazanması, ölkələr sırasında öncül yerlərdən birini tutması, regionda söz sahibi olması da Ulu öndərimizin uzaqgörən siyasətinin uğurlu davamıdır.

Heydər Əliyev məktəbindən dərs alan möhtərəm İlham Əliyevin son 15 ildəki fəaliyyəti, Onun Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq sahəsində atdığı addımlar da bunu təsdiq edir. Xoşbəxtəm ki, mən də belə bir şəxsiyyətin və rəhbərin siyasi komandasındayam, Onun lideri olduğu partiyanın -Yeni Azərbaycan Partiyasının üzvüyəm.



Mən Yeni Azərbaycan Partiyasının yüz minlərlə üzvlərindən biri kimi, millət vəkili kimi, həm də bir həkim kimi tez-tez insanlarla təmasda oluram, xüsusilə xarici ölkələrdə olanda Azərbaycanda gedən quruculuq işləri, inkişaf barədə müxtəlif səviyyələrdə xoş sözlər eşidəndə həm də bu ölkənin vətəndaşı olduğuma görə qürur duyuram. Doğurdan da, Azərbaycan inkişafın dinamikasına görə dünyada lider ölkələrdən sayılır, regionun güc mərkəzi və əsas söz sahibidir, Avropanın yeni enerji təhlükəsizliyi siyasətinin başlıca təminatçılarındandır. Bu gün Azərbaycan öz rəhbərinə və dövlətinə güvənən xalqın vətənidir!

Bütün bu faktlar cənab İlham Əliyevin on beş illik Prezidentlik fəaliyyətinin yalnız bir hissəsidir. Milli maraqlarımızı qorumaq yolunda, bəzən əsassız təzyiqlərlə üzləşməyinizə baxmayaraq, O, dönmədən ardıcıl, qətiyyətli və dürüst addımlar atır, bu günümüz və gələcəyimizin daha işıqlı olması naminə məqsədyönlü siyasət yeridir. Bu, hər bir Azərbaycan vətəndaşının birmənalı olaraq qəbul etdiyi dinamik inkişafın nümunəsidir.

***- Prezident İlham Əliyev xalqımıza verdiyi bütün vədləri yerinə yetirərək insanların rifah halını yaxşılaşdıran, ölkəmizi tərəqqi yoluna çıxaran inkişaf siyasətini uğurla davam etdirib. Bununla bağlı nə deyə bilərsiniz?***

- Bir vacib məsələni də qeyd etməyi vacib sayıram: 2003-cü ildən bu yana Ümummilli liderin siyasi varisi kimi məsuliyyətli bir missiyanı öhdəsinə götürən cənab İlham Əliyev fəaliyyətinin həm birinci, həm də ikinci dövründə verdiyi bütün vədləri yerinə yetirib və bununla da O, ölkənin sosial-iqtisadi inkişafında mühüm irəliləyişlərə nail olmaqla Ulu öndərin siyasi kursunu layiqincə davam etdirdiyini təsdiqləmişdir. Onun məhz Ulu öndərin iqtisadi konsepiyasını uğurla həyata keçirməsi Azərbaycanda müşahidə edilən dinamik yüksəlişə nail oldu; biz indi keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşuq, yeni dövrün sosial-iqtisadi inkişaf strategiyası çevik və işlək mexanizmlər üzərində həyata keçirilir. Həyatımızın bütün sahələrində, o cümlədən səhiyyəmizdə də müşahidə olunan müsbət meyilləri möhkəmləndirmək və daha da inkişaf etdirmək, həmçinin sosial sahədə qarşıda duran problemlərin həllini sürətləndirmək məqsədi ilə cənab Prezidentin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları qısa zaman kəsiyində Azərbaycan iqtisadiyyatının tam hərəkətə gətirilməsi üçün münbit zəmin yaradır. Bir sözlə, ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanın təmin edilməsinin və çoxşaxəli islahatların real nəticəsi olaraq nəzərdə tutulmuş bütün proqnozlar gerçəklikdə öz əksini tapdı və tapmaqdadır. Bu isə sözün əsl mənasında davamlı inkişaf deməkdir.

"2007-2015-ci illərdə Xaricdə Təhsil Dövlət Proqramı" çərçivəsində minlərlə gəncimiz xarici ölkələrin ali məktəblərində təhsil almış və hazırda elmin, mədəniyyətin, iqtisadi və siyasi həyatymızın müxtəlif sahələriundə uğurla çalışmaqdadır. Bu da insan kapitalına verilən dəyərin ən gözəl nümunələrindən biridir! Bu, əsl dövlət xadiminin strateji düçüncə məhsuludur.

***- Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən biri də bütün bölgələrin inkişaf etməsi, əhalinin həyat şəraitinin yaxşılaşmasıdır. Deputatı olduğunuz Astara rayonunun timsalında bu reallıqları necə ifadə edə bilərsiniz?***

- Deputatı olduğum Astara rayonunun bir çox ucqar dağ kəndlərinə elektrik enerjisinin və qazın verilməsi, insanların xəyalını qura bilmədikləri uzaq dağ kəndlərinə asfalt örtüklü yolların çəkilməsi, məktəblərin, uşaq baxçalarının, xəstəxanaların, idman komplekslərinin tikilməsi, yeni-yeni emal müəssisələrinin, iş yerlərinin açılması- bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi dövründə mümkün olub və bu misal ölkəmizin bütün rayon və şəhərlərinə də xasdır. Xüsusilə qeyd edim ki, cənub regionunun turizm potensialının genişləndirilməsi üçün dəmiryol xəttinin yerinin dəyişdirilməsi barədə verilən tapşırıqlar, 2018-ci ildə Bakı-Astara magistral yolunun istifayə verilməsi hər bir vətandaşın ürəyincədir və regionun gələcək inkişafında yeni perspektivlərin başlanğıcıdır.

***- Rəşad müəllim, bütün bu müsbət gerçəkliklər Azərbaycanın inkişafı, tərəqqisi və yüksəlişini təmin edib. Bu, özünü seçkilərin nəticələrində necə göstərəcək?***

- Qarşıdan xalqımızın və dövlətimizin siyasi həyatında ən vacib bir hadisə - prezident seçkiləri gəlir. Hər bir xalq öz azad və mənən təmiz siyasi həyatını qoruyub saxlamaq üçün ilk növbədə öz ləyaqətli rəhbərini seçməlidir. Seçmək və seçilmək hüququ hər bir millətin, hər bir xalqın inkişafının əsasıdır. Prezident seçkiləri isə, ümumiyyətlə, hər bir ölkənin, xalqın siyasi həyatının başlıca, mən deyərdim ki, taleyüklü məsələsidir. Və mən inanıram ki, həmişə olduğu kimi, bu dəfə də böyük Azərbaycan xalqı demokratik və azad prezident seçkisində hamılıqla iştirak edəcək, öz layiqli rəhbərini seçəcək. Bunun üçün dövlətimiz bütün lazımi şəraiti yaradıb. Mən isə öz adımdan qürurla bildirirəm ki, Azərbaycanın gələcəyi naminə səs verəcəyəm. Üzvü olduğum Yeni Azərbaycan Partiyasının sədri möhtərəm İlham Heydər oğlu Əliyevə səs verəcəyəm! Əminəm ki, bu seçim milyonların ürəyincədir, xalqımız tərəfindən müdafiə olunacaq. Çünki İlham Əliyev rəhbərinə və dövlətinə güvənən xalqın səsidir!

# Gəncəlilər daha güclü və qüdrətli Azərbaycan naminə "İlhamla irəli" deyir

***Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Gəncə şəhər şöbəsinin namizədliyi YAP tərəfindən irəli sürülən cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində keçirdiyi növbəti görüşü təbliğat qrupunun üzvü, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, professor İbrahim Cəfərov açaraq, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bu gün Azərbaycanın dünyanın ən sabit, inkişaf etmiş və insanların təhlükəsiz şəraitdə yaşadığı ölkələrindən birinə çevrildiyindən danışıb, seçiciləri 11 apreldə hamılıqla prezidentliyə namizəd cənab İlham Əliyevə səs verməyə səsləyib.***






Seçicilərdən Samirə Qasımova, Elgün Aslanov, Siyasət Məmmədov, Şəfa Musayeva, Valeh Əsədov, Aişə Novruzova çıxış edərək, bildiriblər ki, aprelin 11-də azad və demokratik prezident seçkiləri nəticəsində xalqımız növbəti dəfə cənab İlham Əliyevin parlaq qələbəsini bayram edəcək, çünki cənab İlham Əliyev xalqımızın alternativsiz lideridir.

"Daha güclü və qüdrətli Azərbaycan naminə bütün Gəncə seçiciləri "İlhamla irəli" söyləyir, 11 aprel Prezident seçkilərində YAP namizədi cənab İlham Əliyevin namizədliyini dəstəkləyirlər"- bunu böyük izdihamla keçən görüşdə YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev söyləyib.

## Eli Naxt: Prezident seçkiləri Azərbaycanın demokratik inkişaf yolunda qazandığı uğurların daha bir göstəricisi olacaq



Uğurlu siyasət nəticəsində Azərbaycan müasir, dinamik inkişaf edən, çoxsaylı dövlətlərin etimad və hörmətini qazanan ölkəyə çevrilib. Bu fikri secki-2018.az saytına açıqlamasında İsrailin Beynəlxalq İnsan Hüquqları Komitəsinin səlahiyyətli nümayəndəsi Eli Naxt söyləyib. O bildirib ki, aprelin 11-də keçiriləcək prezident seçkiləri ölkənin demokratik inkişaf yolunda qazandığı uğurların göstəricisi olacaq: "Prezident seçkilərindən sonra ölkədəki sabitlik daha da möhkəmlənəcək".

Azərbaycan-İsrail əlaqələrindən danışan E.Naxt deyib: "İki ölkə arasında münasibətlərin strateji əhəmiyyəti yalnız ABŞ-İsrail münasibətləri ilə bərabər tutula bilər: "Ölkələrimizin rəhbərliyi arasında da yaxşı qarşılıqlı anlaşma mövcuddur. Bu gün İsaril ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 5 milyard dollara çatıb, eyni zamanda, hərbi strateji maraqları, həmçinin Azərbaycandakı yəhudi icmasına xoş münasibəti xüsusi qeyd etmək istərdim. Təcrübə göstərir ki, müəlman ölkələrində, xüsusilə də keçmiş Sovet İttifaqi ölkələrində sabitliyin qarantı güclü idarəetmədir. İsrail üçün isə, xüsusilə də qonşu dövlətlərlə münasibətdə sabitlik çox vacibdir".

O qeyd edib ki, Azərbaycanın sülhpərvər və müstəqil siyasəti mövcud coğrafi məkanda sabitliyin əsas elementidir: "Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Bu seçkilər inkişafın davamı üçün olduqca böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yaşayır. 11 aprel seçkilərinin nəticələri, eyni zamanda, bu tolerant mühitin möhkəmlənməsi üçün vacibdir".

# Əli Kərimlini müdafiə edən vətən xaini çıxdı - sensasion məlumatlar

***Müxalifətdə olmaq o deməkdir ki, sən öz ölkənə, dövlətinə düşmən mövqedə dayanmalısan? Hər addımda bilərəkdən xalqının mənafeyinin ziddinə getməlisən? Ətrafına Azərbaycana qarşı düşmən mövqedə olan insanları, təşkilatları yığmalısan? Ölkənin müstəqilliyini, bayrağını qəbul etməyən, nəinki qəbul etməyən, bu iki ali dəyərimizə qarşı çıxan qüvvələrin liderinə çevrilməlisən?***

Bu suallar ritorik deyil. Heç sadəlövhlükdən də irəli gəlmir. Qarşılaşdığımız mənzərə, əldə etdiyimiz informasiyalar, faktlar bizi o qədər heyrətə salıb ki, bu sualları verməyə məcbur qalırıq.

***

Milli Şura ilə Müsavat Partiyasının birgə təşkil etdikləri 31 mart mitinqi haqda sosial və peşəkar mediada bir neçə gün müzakirə aparıldı. Aksiyanı təqdir edənlər, ora 10 mindən artıq adamın yığışdığını iddia edənlərlə yanaşı, tədbirin alınmadığını, meydana uzaqbaşı iki min, üç min adamın yığışdığını yazanlar da oldu. Təqdir yazıları kimi, tənqid məqalələrinin yazılması da normaldı. Hər şeyin yaxşı olduğunu demək kimi, hər şeyin pis olduğunu söyləmək, yazmaq da sağlam yanaşma deyil.

Musavat.com-da da 31 mart aksiyası haqda kiçik bir məqalə dərc olundu. "İflasın fotosu - Kərimlinin əli siyasətdə niyə gətirmir" başlıqlı yazıda (http://musavat.com/news/iflasin-fotosu-kerimlinin-eli-siyasetde-niye-getir-mir_515895.html http://musavat.com/news/iflasin-fotosu-kerimlinin-eli-siyasetde-niye-getir-mir_515895.html) aksiya ilə bağlı bəzi müşahidələr, fikirlər yer almışdı. Normalda bu yazıya Əli Kərimlinin çevrəsində qərarlaşmış lümpenlər cavab verməli idilər. Çünki onların təşkil etdikləri aksiyanı ələşdirmişdik.

Amma bu məqaləyə cavab başqa bir ünvandan gəldi. Nur-az.com adlı bir saytda və eyni adlı facebook səhifəsində yazdıqlarımıza təhqir və söyüşlə reaksiya verildi. Əməkdaşımızın mitinq təəssüratlarına, qeydlərinə cavabda əsas hədəf "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Artifoğlu idi. Düşünmək olardı ki, bu, AXCP-nin peyk saytlarındandı. Necə ki Əli Kərimli və ətrafı saxta profillər yaradıb onları təqdir etməyənləri mənəvi-psixoloji terrora məruz qoyurlar, bu saytın da fake olduğunu zənn edib, üstündən keçmək mümkün idi. Amma və lakin... Saytı araşdırdıq. Əldə etdiyimiz bilgilər bizi xeyli təəccübləndirdi. Sən demə, nur-az.com saytı iranyönümlüdü. Bir qədər də araşdırdıqda məlum oldu ki, bu saytı İsgəndər Hüseynzadə adsoyadlı bir nəfər idarə edir. Məsələnin gerçək mahiyyəti burada üzə çıxdı.

Kimdir İsgəndər Hüseynzadə? O, niyə Milli Şuranı, Əli Kərimlini bu cür davakarcasına, necə deyərlər, qanını qaşığa qoyaraq müdafiə edir?







Məlum oldu ki, bu adam İranın bəzi dairələrinin istifadəsində olan bir casusdur. Adam birmənalı Azərbaycana - öz ölkəsinə, dövlətinə düşmən mövqedə dayanan biridir. Onun barəsində bildirilir ki, Hüseynzadə İsgəndər Hüseynəli oğlu 27 yanvar, 1966-cı ildə Cəlilabad rayonunda anadan olub. 1996-cı ildən ailəsi ilə birgə İran İslam Respublikasının Qum şəhərinə köçüb. 2008-ci ildə barəsində "Dövlətə xəyanət" və "Terrorçuluq" maddələri ilə cinayət işi başlanıb. Elə həmin il MDB üzrə və İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilib.




İ.Hüseynzadə Qum şəhərində fəaliyyət göstərən "Nur" elmi-mədəni müəssisəsinin (nur-az.com) rəhbəridir. Onun saytında ölkəmiz əleyhinə qərəzli yazılar verilir. Bir sözlə, adamın rəhbərlik etdiyi sayt tam anti-Azərbaycan mövqelidi.

Barəsində "Dövlətə xəyanət" və "Terrorçuluq" maddələri ilə cinayət işi qaldırılmış, Azərbaycan əleyhinə açıq düşmənçilik edən bir adamın Əli Kərimlinin müdafiəsinə qalxması çox şeydən xəbər verir. AXCP sədrinin siyasi iştahı və iqtidara qərəzi o qədər yüksəkdir ki, o, ağına-bozuna baxmadan hər qüvvə ilə əməkdaşlığa getməkdən çəkinmir. Əli Kərimlinin ətrafı İran və Rusiya agenturası ilə qaynayır. Bu gün onun müdafiə etdiyi dini kəsimin haralara bağlı olduğu əksəriyyətə bəllidir. "Yeni Müsavat" ötən il bu mövzuda araşdırma yazı dərc edib. Həmin yazının linkini təqdim edirik: http://musavat.com/news/azerbaycana-qarsi-separatizm-herekati-xeyanet-kadrosu-ermeniler-ve-milli-sura-ile-beraberdir-boyuk-tehluke_428759.html.

Ə.Kərimlinin bugünkü müttəfiqləri arasında talış separatizmini açıq şəkildə müdafiə, həmçinin təbliğ edən, Azərbaycanın müstəqilliyinə dil və əl uzadan xeyli dönüklər var. Hakimiyyət uğrunda mübarizədə ölkəsinə, dövlətinə düşmən mövqedə olan qüvvələrlə ittifaq yaratmaq hansı əxlaqa sığır?! Ə.Kərimli bu adamların Azərbaycanın müstəqilliyinə qarşı olduqlarını, hər addımda dövlət əleyhinə açıq çıxışlar etdiklərini, gerçək bir vətən xaini olduqlarını detallarına qədər bilir. Fəqət Azərbaycana qarşı xain və düşmən mövqedə dayanan bu çete ilə müttəfiqliyinə son qoymur.

Təkcə Əli Kərimlimi bu mövqedədi? Yalnız o, separatçıları və vətən xainlərini ətrafına toplayıb, onları reabilitasiya və müdafiə edir? Təəssüf ki, müxalifətçilik pərdəsi altında Azərbaycanı küreyindən xəncərləyənlər Cəbhə sədri ilə yekunlaşmır. Nə yazıq ki belələrinin sayı kifayət qədərdi. Onlar üzdə hakimiyyəti, bəzi məmurları hədəfə alırlar. Əsl hədəfləri isə Azərbaycanın müstəqilliyinə qarşı açıq və birmənalı mövqedə olan tör-töküntüləri müdafiə etməkdir, onlarla ittifaq yaradıb iqtidara gəlməkdir.

Təsəvvür edin, özünü əzabkeş, iqtidar tərəfindən təqib olunan biri kimi göstərən Aslan İsmayılov da İsgəndər Hüseynzadənin müdafiəçisinə, həmçinin təbliğatçısına çevrilib. Bu adamın Rauf Arifoğlunun əleyhinə olan yazısını özünün facebook səhifəsində paylaşır, üstəlik, onu facebookun pullu reklam imkanlarından yararlanıb, daha da tirajlayır.

Xatırladaq ki, nur.az.com saytı məlum mövqeyinə görə bloklanıb. Sayta Azərbaycan ərazisindən giriş mümkün deyil. Lakin həmin saytın facebookda səhifəsi var və oradan qapı kimi istifadə edərək, Azərbaycana, onun ziyalılarına, dəyərlərinə, dövlətinə qarşı təxribat materialları yayırlar. Bu materiallardan biri də Rauf Arifoğlu haqqındadır. Və bu materialı da hər zaman dəstəklədiyimiz, dara düşəndə yayında olduğumuz Aslan İsmayılov həyata keçirdir. Belə çıxır, sizin davanız hakimiyyətlə deyil, cənablar. Siz Azərbaycanın müstəqilliyi və bayrağı ilə düşmənçilik edirsiz. Tarixin və millətin alnınıza vuracağı damğadan qorxmursunuzmu? Necə ki, biz bu gün Əliheydər Qarayevi, Ruhulla Axundovu, Məşədi Əzizbəyovu, Çingiz İldırımı və başqa sapı özümüzdən olan Cümhuriyyət düşmənlərini lənətləyirik, gələcək nəsillər də sizi eyni formada lənətləyəcək... Ən nəhayət, Əli Kərimli də, Aslan İsmayılov da ixtisasca hüquqşünasdırlar. Etdikləri bu əməllərə görə təkcə mənəvi məsuliyyət daşımırlar, həm də hüquqi baxımdan məsuliyyət daşıyırlar.

Tarixdən və hüquqdan qorxun...

***Azər AYXAN,***
***"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini***

# "ATƏT DTİHB-in müşahidə missiyası seçki təxribatı hazırlayır" -Prezidentliyə namizəd



"ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası prezident seçkilərində təxribat hazırlayır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası seçki məntəqələrinə yerli müşahidəçi qismində Əli Kərimliyə yaxın olan çoxlu sayda adam yerləşdirib". Bunu iddia ilə apa-ya açıqlamasında "Cəbhəçilərin Təşəbbüs Qrupu"ndan prezidentliyə namizədliyi irəli sürülmüş Razi Nurullayev çıxış edib.

R.Nurullayev deyib ki, bunu etməkdə məqsəd səsvermə günü məntəqələrdə guya kütləvi pozuntuların olduğu, səsvermənin nəticələrinin saxtalaşdırıldığı və digər namizədlərə verilən səslərin Razi Nurullayevə yazıldığı barədə rəy formalaşdırmaqdır.

Prezidentliyə namizəd bildirib ki, ATƏT DTİHB müşahidə apardığı bəzi ölkələrdə keçirilən seçkilərin nəticələri barədə, bir qayda olaraq, qərəzli hesabatlar hazırlayır: "Bu zaman həm özünün müşahidə missiyasının üzvlərinin, həm də onun tövsiyəsi əsasında məqsədli şəkildə seçilib məntəqələrə yerləşdirilmiş bəzi yerli müşahidəçilərin fikirlərinə istinad edir. Qeyd etmək istəyirəm ki, yerli müşahidəçilər daha çox məni özünün bir nömrəli düşməni sayan Əli Kərimlinin adamlarından formalaşdırılıb. Bütün bunlar namizəd kimi yalnız mənə qarşı deyil, bütövlükdə Azərbaycanda keçirilən prezident seçkilərinə qarşı təxribatdır. Bəri başdan bəyan edirəm ki, biz qərəzli hesabatı qəbul etməyəcək, onu hazırlayanların ifşası yönündə iş aparacağıq".

# "Nar" mobil internet istifadəçilərinin artım tempinə görə liderdir




Müstəqil araşdırma şirkəti tərəfindən keçirilmiş müştəri loyallığı indeksi (Net Promoter Score - NPS) araşdırmasının nəticələrinə əsasən, "Nar" mobil internet istifadəçilərinin sayındakı artım tempinə görə mobil rabitə bazarında ən yüksək nəticəyə nail olmuşdur. Operator mobil internet istifadəçilərinin sayında nəzərəçarpacaq artıma bütün ölkə ərazisi boyunca genişləndirilmiş 3G, 4G və LTE-A şəbəkəsi ilə yanaşı, abunəçilərə sərfəli qiymətə yüksəkkeyfiyyətli mobil internet paketlərini təqdim etməklə müvəffəq olmuşdur.

Araşdırmanın nəticələrinə əsasən, mobil internetin keyfiyyəti, müştərilərin şəbəkəni öz dost və ailə üzvləri arasında istifadə etməsi, eləcə də tarif və qiymətlərin müxtəlifliyi və əlverişliliyi amillərinə görə "Nar" NPS indeksi yüksək nəticə göstərmişdir. "Nar" mobil internetinin keyfiyyəti, xüsusi kampaniya və təkliflər, həmçinin zəng xidməti üzrə müştəri məmnuniyyəti göstəriciləri artaraq yüksək həddə çatmışdır.

Qeyd edək ki, 2017-ci ilin 2-ci rübündə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdı.

Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə vermişdir.

# Azərbaycan Respublikası prezidentliyə namizədlərin seçilməsi qaydalarına dair

***Prezidentliyə namizəd, qeydə alınmış prezidentliyə namizəd Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi yazılı məlumata əsasən, özünün seçki hesabında olan vəsaitdən istifadə etmək hüququnu başqa şəxsə həvalə edirsə, bu halda, maliyyə hesabatını həmin şəxs imzalayaraq, Mərkəzi Seçki Komissiyasına təqdim edir və qanun pozuntularına görə bilavasitə məsuliyyət daşıyır.***

Yekun maliyyə hesabatı, seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri qoşulmaqla, seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra təqdim edilir.

"Seçki hüququna dair praktikum" kitabında göstərilir ki, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə, eləcə də, kütləvi informasiya vasitələrinə büdcə vəsaitlərinin istifadəsi, prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin seçki fondlarındakı vəsaitin xərclənməsi barədə seçkilərin ümumi nəticələrinin rəsmi dərci günündən sonra 3 ay müddətində məlumat təqdim edir. Göstərilən maliyyə hesabatı, məlumatlar Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunduqları gündən etibarən, bir ay müddətində, Mərkəzi Seçki Komissiyasının rəsmi mətbuat orqanında dərc edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58-ci maddəsinin 1.4-1.5-ci bəndlərinə və 58-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq namizədlər gəlirlərinin miqdarı, məbləği, mülkiyyət hüququ əsasında onlara məxsus əmlak haqqında məlumat verirlər.

Məlumatda aşağıda qeyd olunan gəlir mənbələri göstərilməlidir (gəlirlərin alındığı təşkilatlardan və fiziki şəxslərdən il ərzində həmin gəlirlərin cəmi barədə arayışlar təqdim edilməlidir):

Əsas iş yerindən əmək haqqı barədə

Əsas iş yerindən əmək haqqı dedikdə, vətəndaşlar tərəfindən müəssisələr, idarələr və təşkilatlarla bağlanmış əmək müqavilələrinə (kontraktlara) əsasən, konkret ixtisas, dərəcə və vəzifə üzrə işlərin yerinə yetirilməsi, yaxud kooperativdə, kəndli-fermer təsərrüfatında, ictimai və ya dini təşkilatda, vəkillikdə, habelə, xidməti və ya tədrislə əlaqədar əmək funksiyasının yerinə yetirilməsinə görə ödənişlər başa düşülür.

Mükafat və maddi yardım haqqında

Mükafat və maddi yardım dedikdə, il ərzində işin yekununa görə mükafat, xidmət illərinə görə mükafat, birdəfəlik xarakter daşıyan əlavə mükafatların bütün növləri, yubiley və bayram günləri, doğum günləri ilə bağlı və digər oxşar hallarda verilən həvəsləndirici ödənclər, əmək funksiyalarının yerinə yetirilməsinə görə digər mükafatlar və bütün növlərdən olan maddi yardımlar başa düşülür.

Mülki-hüquqi müqavilələrdən əldə olunan gəlir haqqında

Mülki-hüquqi müqavilələrdən əldə olunan gəlir dedikdə, vətəndaşların əsas iş yerində əmək haqqı, vəzifə icrası ilə əlaqədar olmayan işləri yerinə yetirməkdən (birdəfəlik işlərin yerinə yetirilməsindən, əvəzçilik üzrə işlərdən) əldə etdikləri gəlirlər başa düşülür.

Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında

Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir dedikdə, Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə nəzərdə tutulan və qanunla qadağan edilməyən fəaliyyət növlərindən əldə edilmiş gəlirlər başa düşülür (sahibkarlıqla məşğul olan fiziki şəxs tərəfindən ilin yekununa görə vergi orqanlarına təqdim edilmiş bəyannamədə göstərilən gəlir).

Qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında

Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə muzdlu işlə əlaqədar əldə edilən və sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərdən başqa digər gəlirlər daxil edilir:

o cümlədən:

- banklardan və kredit idarələrindən alınmış faizlər;
- dividendlər;
- müəlliflik haqqı;
- royalti;
- qiymətli kağızlar üzrə əməliyyatlardan əldə edilən gəlir;
- bağışlanmış borcun məbləği;
- əmlakın icarəyə verilməsindən əldə edilən gəlir;
- həyatın yığım sığortası üzrə gəlir;
- ailə üzvü olmayan şəxslərdən alınan hədiyyələr və maddi yardım;
- alınmış miraslar;
- lotoreya uduşları:
- sair gəlirlər ("sair gəlirləri" dedikdə, yuxarıda sadalanmayan digər gəlirlər nəzərdə tutulur).

Əmlak və mülkiyyət haqqında məlumatlar müvafiq orqanlardan (Əmlak Nazirliyinin təşkilatlarından, mənzil-istismar sahələrindən, texniki inventar bürolarından) alınmış arayışlarla təsdiq olunur.

"Seçki hüququna dair praktikum" kitabında göstərildiyi kimi, seçicilərin təşəbbüs qruplarının irəli sürdükləri və ya öz təşəbbüsü ilə irəli sürülən namizədlərin müdafiəsi məqsədilə seçici imzalarının toplanması Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən namizədə, onun səlahiyyətli nümayəndəsinə Azərbaycan Respublikası prezidentliyinə namizədin irəli sürülməsini təsdiq edən qərarın təqdim edildiyi gündən başlanır.

Siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması isə irəli sürülmüş namizədin təsdiq olunması barədə Mərkəzi Seçki Komissiyasının əsaslandırılmış qərarından sonra başlanılır.

Namizədə, onun səlahiyyətli nümayəndəsinə, seçicilərin təşəbbüs qruplarının, siyasi partiyanın, siyasi partiyalarının blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələri verilərkən hər bir imza vərəqəsinin yuxarı sağ küncü Mərkəzi Seçki Komissiyası Katibliyinin möhürü ilə təsdiqlənməlidir.

İmza vərəqələri Azərbaycan Respublikasının Seçki Məcəlləsinə 2 və 2 "A" əlavələrdə göstərilən formada hazırlanmalıdır. İmza vərəqələri namizədə, onun səlahiyyətli nümayəndəsinə, seçicilərin təşəbbüs qrupuna, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilərkən, namizədlərin irəli sürülməsi zamanı onların bərabər statusunun təmin edilməsi məqsədilə, vərəqələrin sayı Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qeydiyyat üçün lazım olan imzaların ümumi sayının 15 faizindən artıq olmamalıdır.

Namizədə və ya səlahiyyətli nümayəndəyə imza vərəqələri verilərkən, 2 nüsxədən ibarət akt tərtib edilməlidir. Tərtib olunmuş akt namizəd və ya səlahiyyətli nümayəndə, eləcə də, Mərkəzi Seçki Komissiyası Katibliyinin əməkdaşı tərəfindən imzalandıqdan sonra Mərkəzi Seçki Komissiyası Katibliyinin möhürü ilə təsdiqlənir.

İmza vərəqələrini qəbul etməsi haqqında namizədin və ya səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, eləcə də, səlahiyyətli nümayəndə olduğunu təsdiqləyən sənədin nömrəsi və verilmə tarixi, həmçinin, Mərkəzi Seçki Komissiyası Katibliyi əməkdaşının soyadı, adı, atasının adı, tutduğu vəzifə, verilən imza vərəqələrinin sayı və digər məlumatlar göstərilməlidir. Tərtib edilmiş akt imzalanaraq möhürləndikdən sonra onun bir nüsxəsi Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsində qalır. Digər nüsxəsi isə verilən imza vərəqələri ilə birlikdə səlahiyyətli nümayəndəyə və ya namizədə təqdim edilir.

Siyasi partiyaların və siyasi partiya bloklarının seçkilərdə iştirakı

Siyasi partiyaların və siyasi partiya bloklarının Azərbaycan Respublikası Prezidentinin seçkilərində iştirakının əsasları, namizədlərin irəli sürülməsi və qeydiyyatı qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin 49-59-cu, 180-81-ci və 188-ci maddələri ilə tənzimlənir.

Siyasi partiyalar və siyasi partiyaların blokları prezidentliyə namizədləri seçicilərin elan edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürə bilərlər.

Seçki Məcəlləsinin 54-cü və 180-cı maddəllərinin şərtlərinə görə, prezidentliyə namizədlər siyasi partiyalar tərəfindən sərbəst şəkildə və ya bir neçə siyasi partiyanın yaratdığı blok tərəfindən irəli sürülə bilər.

Prezidentliyə namizədin siyasi partiya tərəfindən irəli sürülməsi qaydaları  Prezidentliyə namizəd siyasi partiya tərəfindən irəli sürülürsə, bu barədə qərar siyasi partiyanın nizamnaməsinə uyğun olaraq qəbul edilir. Belə qərar kollegiyal qaydada səsvermə yolu ilə qəbul olunur. Namizədin irəli sürülməsi barədə siyasi partiyanın qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilməlidir:

- hər bir siyasi partiyanın nizamnaməsinə uyğun olaraq rəhbər orqanının iclasında (qurultayda, konfransda, digər rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış nümayəndələrin sayı;
- prezidentliyə namizədin irəli sürülməsi ilə əlaqədar müzakirdə çıxışlar;
- prezidentliyə namizədin irəli sürülməsi barədə qərar üzrə səsvermənin nəticələri (lehinə, əleyhinə və bitərəf qalanların sayı);
- prezidentliyə namizədin irəli sürülməsi barədə qərarın qəbul edilmə tarixi.

Siyasi partiya öz üzvləri arasından prezidentliyə namizəd irəli sürmürsə, partiyanın üzvü olmayan şəxsin namizədliyini irəli sürə bilər.

Hər bir siyasi partiya prezidentliyə yalnız bir şəxsin namizədliyini irəli sürə bilər.

Siyasi partiyanın namizəd irəli sürməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi sənədlər

Siyasi partiyanın səlahiyyətli nümayəndəsi siyasi partiyanın prezidentliyə namizəd irəli sürməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:

- siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;
- siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;
- nizamnamənin tələblərinə uyğun olaraq namizədin irəli sürülməsi barədə siyasi partiya qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı;
- namizədin irəli sürülməsi barədə siyasi partiyanın (qurultayının, konfransının, rəhbər orqanı iclasının) müvafiq iclas protokolu;
- siyasi partiyanın səlahiyyətli nümayəndələrinin notariat qaydada rəsmiləşdirilmiş vəkalətnamələri;
- namizədin irəli sürülməsi haqqında razılıq ərizəsi;
- səlahiyyətli nümayəndələrin razılıq məktubu.

Razılıq ərizəsində prezidentliyə namizəd, Azərbaycan Respublikası Konstitusiyasının 100-cü maddəsində prezidentliyə namizədlərə dair tələblər də daxil olmaqla, aşağıdakıları göstərməlidir (ərizənin nümunəsi Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilib):

- soyadı, adı, atasının adını;
- doğum tarixini;
- yaşayış yerinin ünvanını;
- vətəndaşlığını (xarici ölkə vətəndaşlığına mənsubluğu varsa, həmin dövlətin adını);
- təhsilini;
- əsas iş və ya xidmət yerini, o cümlədən, tutduğu vəzifəni (bu olmadıqda - fəaliyyət növünü);
- öz arzusu ilə, siyasi partiyaya mənsubluğunu;
- ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsini;
- xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin qanununun adını;
- başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması haqqında məlumatı;
- prezident seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyini.

Siyasi partiyaların bloku, adı və emblemi

Siyasi partiyaların blokunu azı iki siyasi partiya yarada bilər. Siyasi partiya blokun tərkibinə daxildirsə, seçkilərin keçirildiyi dövrdə müstəqil partiya kimi çıxış edə bilməz və ya digər bloka daxil ola bilməz. Siyasi partiyaların blokuna daxil olmaq barədə qərar bloka daxil olacaq hər bir siyasi partiyanın nizamnaməsinə uyğun qəbul edilir. Göstərilən müvafiq qərar qəbul edildikdən sonra siyasi partiyaların səlahiyyətli nümayəndələri blokun yaradılması barədə birgə qərar imzalayırlar.

Siyasi partiyalar blokunun tərkibində olan siyasi partiya səsvermə gününə 85 gün qalmış seçkilərdə iştirak etməkdən imtina edə bilər, müstəqil siyasi partiya kimi çıxış edə və ya digər siyasi partiyaların blokunun tərkibinə daxil ola bilər.

Siyasi partiyalar blokunun tərkibinə daxil olan siyasi partiya səsvermə gününə azı 10 gün qalmış istənilən vaxt Mərkəzi Seçki Komissiyasına ərizə verməklə müvafiq siyasi partiyanın səlahiyyətli orqanının qərarı ilə bu siyasi partiyalar blokunun tərkibində seçkilərdə iştirak etməkdən imtina edə bilər.

Siyasi partiyaların bloku Seçki Məcəlləsinə müvafiq olaraq, səlahiyyətli nümayəndələrini təyin edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs









## Salyanlılar Ulu Öndərin layiqli davamçısına səs verəcəklər

Aprelin 5-də Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Salyan rayon şöbəsinin üzvləri pariyanın Prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Salyan şəhərində qadınlarla və Yeni Uluxanlı kəndinin sakinləri ilə görüş keçiriblər. YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov görüşlərdə çıxış edrək bildirib ki, Salyanlı qadınlar 11 aprel prezident seçkilərində cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva çıxış edərək bildirib ki, bu gün Azərbaycan xanımı inkişaf edən, qüdrətlənən ölkəsi ilə qürur duyur. Məhz Azərbaycanımızın belə yüksək səviyyədə inkişafına nail olan Prezident İlham Əliyevə qadınlarımız həmişə ümid yeri kimi baxıb, onun humanist siyasətinə, milli mənafelərimizin qorunması siyasətinə güvəniblər . Təbii ki, biz qadınlar bundan sonra da ölkəmizin daha da güclənməsini istəyiriksə 11 aprel prezident seçkilərində yenidən cənab İlham Əliyevə etimad göstərməliyik. Mən bunu bizim dövlətimizə ən böyük dəstəyimiz hesab edirəm.

Görüşlərdə çıxış edənlərdən Milli Məclisin deputatı Fəzail Ağamalı, Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi İctimai Birliyinin sədri İlham İsmayılov bildiriblər ki, Prezident İlham Əliyev təkcə Yeni Azərbaycan Partiyasının yox, bütövlükdə xalqın namizədidir. Çünki cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz lideridir və cəmiyyət yekdilliklə onun siyasətini dəstəkləyir. İctimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da göstərir ki, Prezident İlham Əliyevin fəaliyyəti cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Görüşlərdə çıxış edənYAP Salyan rayon təşkilatı Qadınlar Şurasının sədri Fatma Səmədzadə bildirib ki, salyanlı qadınların seçimi birmənalı olaraq cənab İlham Əliyevdir. Biz keçirilən bütün görüşlərdə Prezident İlham Əliyevə olan hörmət və rəğbəti həmişə hiss etmişik.


## ELAN

Bakı şəhər Texniki İnventarlaşdırma Bürosu tərəfindən Əsədov Fəqani Sabir oğluna (ünvan : Nizami rayon , Əli Vəliyev küç b11, mən9) verilmiş küpçə itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə psixoloji xidmət ixtisası üzrə III kurs tələbəsi Salmanova Aygün Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin I kurs tələbəsi Ələkbərova Gülnarə Qabil qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

"Təmir-Tikinti AzNY" QSC-nin səhmdarlarının nəzərinə

11 may 2018-ci il tarixdə, saat 11.00-da "Təmir-Tikinti AzNY" QSC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. Səhmdara məxsus əmlakın naturada ayrılmasına dair.
2. Nizamnaməyə əlavə və dəyişikliyin edilməsinə dair.
3. Digər məsələlər.

Ünvan: Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1

*Əlaqə telefonu: (012) 570-14-27*

R

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 1, 2, 3 və 4 saylı binalarında mənzillərin satışı 7 may 2018-ci il tarixində saat 10:00-da başlayacaq və 7 avqust 2018-ci il tarixi saat 10:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalında (www.e-gov.az) yaradılmış "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir. Həmin şəxslər elektron kabinetlərində "Satış/Mənzillər" bölməsinə daxil olaraq "erkən gələnə erkən xidmət" prinsipi (satış başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzilləri seçə biləcəklər. "Güzəştli Mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa 260 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Dövlət Tikinti normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunur. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 15.11.2016-cı il tarixli 22880 nömrəli və 27.12.2016-cı il tarixli 23089 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi ($m^2$) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi ($m^2$) | Mənzillərin xarici perimetr üzrə sahəsi ($m^2$) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50 – 33,01 | 40,12 | "NN Group" MMC / Bakı şəhəri, Yasamal rayonu, Talıblı küçəsi, 27, 8-ci mərtəbə, qapı 1. | 01 iyul 2018-ci il |
| | | | | 2 | 24 | 56,85 – 57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80 – 70,46 | 84,47 | | |
| 2 | 645,25 | 9 | 2 | 1 | 9 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 54 | 49,77 – 55,02 | 60,10 – 66,91 | | |
| | | | | 3 | 9 | 69,08 – 69,68 | 84,47 | | |
| 3 | 665,45 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 32 | 54,65 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 – 69,93 | 81,64 | | |
| 4 | 675,52 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 32 | 54,65 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 – 69,93 | 81,64 | | |

### Satış şərtləri və qiymətlər:

Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 1.2.10-cu yarımbəndi və 3.2-ci bəndinə əsasən vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 282** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 626** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **203-236 manat** | **282-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | **2 993** | **26 932** |
| 2 | 47 282 | **4 728** | **42 554** |
| 3 | 65 626 | **6 563** | **59 063** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.



*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**